RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 37 (8916) CÜMƏ, 18 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Qarabağın quruculuğu ümummilli fəaliyyətə çevrilir



## İşğaldan azad olunmuş ərazilərin bərpasına investisiya yatıracaq yerli və xarici iş adamlarına dövlət hər cür dəstək göstərəcək

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, xaricdən aldığı yardımlarla keçinən, zəngin təbii ehtiyatları ola-ola əhalisinin enerjiyə olan tələbatını idxal hesabına ödəyən Azərbaycan indi qlobal layihələr həyata keçirən, islahatlar aparan, regional əməkdaşlığa və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş ölkəyə çevrilib.

Müstəqillik dövründə, yəni cəmi 30 il ərzində ölkə iqtisadiyyatına 300 milyard dollar investisiya qoyulması, xarici ölkələrə yatırımlar etməsi, əlbəttə ki, hər ölkəyə nəsib olmayan möhtəşəm nailiyyətlərdir.

İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərdən sonra regionda yaranan yeni reallıqlar və bölgədə diktənin Azərbaycana məxsus olması isə bir daha təsdiq edir ki, ölkəmiz Cənubi Qafqazın ən fəal siyasi və iqtisadi aktorudur.

### Azərbaycan ən azı 100 il həm özünü, həm də tərəfdaşlarını qazla təchiz edə bilər

Bu gün Azərbaycan yalnız öz gücünə, heç bir təşkilatdan, dövlətdən yardım almadan işğaldan azad edilən torpaqlarımızda böyük quruculuq işlərini davam etdirir. Təbii ki, işğaldan azad edilən rayonlarımızda bərpa, yenidənqurma və iqtisadiyyatın formalaşması Azərbaycan iqtisadiyyatında artım tempini daha da sürətləndirəcək.

İqtisadçı ekspertlərin ilkin proqnozlarına görə, işğaldan azad edilən ərazilərimiz aqrar sektorda əlavə 10 faizə yaxın dəyərin yaradılmasına imkan verəcək ki, bu da sənayedə və Azərbaycan iqtisadiyyatında artım tempini daha da sürətləndirəcək.

Ardı 2-ci səh.

# Yüksək qlobal nüfuzun təcəssümü

## NATO Baş katibinin və Polşa Prezidentinin İlham Əliyevə telefon zəngləri həm də Azərbaycanın güclü beynəlxalq mövqeyindən xəbər verir

NATO-nun Baş katibi Yens Stoltenberqin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın Azərbaycan Prezidenti İlham Əliyevə zəng etmələri bu həftənin əsas siyasi hadisələri sırasında yer aldı. Bu zənglər, ilk növbədə, Azərbaycan Prezidentinin qlobal miqyasda olan yüksək siyasi nüfuzunun və respublikamızın beynəlxalq məsələlərdəki güclü mövqeyinin təsdiqi oldu.

### Milli maraqları təmin edən siyasi kurs

Prezident İlham Əliyevin xarici siyasətdə siyasi-diplomatik uğurlarından biri dünyanın bütün siyasi-hərbi qütbləri, nüfuzlu beynəlxalq təşkilatları, aparıcı siyasi, iqtisadi və humanitar dairələri ilə qarşılıqlı hörmətə və etimada əsaslanan əlaqələrinin olmasıdır. Təsadüfi deyil ki, bütün siyasi mərkəzlərdə İlham Əliyev dünya səviyyəli siyasi lider kimi qəbul edilir və buna görə respublikamızla əməkdaşlıq əlaqələri yüksək qiymətləndirilir.

Xatırladaq ki, ötən ilin dekabrında Prezident İlham Əliyevin Brüsseldə NATO-nun Baş katibi Yens Stoltenberqin dəvəti əsasında onunla keçirdiyi görüş bunu növbəti dəfə təsdiq edən mühüm hadisə idi. Bu görüşdə NATO-nun Baş katibi Azərbaycanın Alyansın dəyərli tərəfdaşı olduğunu qeyd etmiş, Azərbaycan Silahlı Qüvvələrinin NATO-nun missiyalarındakı xidmətini yüksək qiymətləndirmişdi. “Bu, NATO-nun Azərbaycanla tərəfdaşlığında dialoqun və qarşılıqlı anlaşmanın önəmini göstərir. Uzun illər ərzində aramızda güclü əməkdaşlıq olub. Bu gün əməkdaşlıq bir çox sahəni, bacarıqların inkişafından tutmuş enerji təhlükəsizliyinə qədər olan sahələri əhatə edir”, - deyə Yens Stoltenberq Prezident İlham Əliyevlə keçirilən görüşü dəyərləndirərkən bildirmişdi.

NATO-nun mənzil-qərargahında keçirilən görüş bir daha Azərbaycanın həyata keçirdiyi siyasətin məzmununu ortaya qoymuşdu. Bu məzmun isə rəsmi Bakının siyasi kursunun tamamilə müstəqil olduğunu, milli maraqlarımızı, dövlətimizin qlobal miqyasda mövqelərini layiqincə qoruduğunu nümayiş etdirmişdi. Həmin vaxt Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi NATO-nun Şimali Atlantika Şurasının iclasında NATO-ya üzv dövlətlər tərəfindən ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olunmuşdu.

Ardı 2-ci səh.

# YAP daha böyük zəfərlərin siyasi istinadgahı olacaq

## Düzgün siyasi hədəflər, xalqın maraqlarını əks etdirən fəaliyyət və Azərbaycan amalı partiyamızın davamlı nailiyyətlərinin əsas təməlidir

Otuz il. Zaman baxımından qısa görünən bu dövr Azərbaycanın tarixinə hansı uğur səhifələrini yazdı? Yaranmasından ötən 30 ildə sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirən Yeni Azərbaycan Partiyası cəmiyyətə özünü necə təqdim etdi? Hansı amillər YAP-ı nəinki ölkənin, hətta Cənubi Qafqazın aparıcı siyasi təşkilatına çevirdi?

Ötən 30 il partiyanın ölkədə keçirilən prezident, parlament, bələdiyyə seçkilərində birindən parlaq qələbələrində nə kimi rol oynadı? Ən nəhayət, Yeni Azərbaycan Partiyasını yarandığı gündən indiyədək xalqa sevdirən, ona ümumxalq partiyası statusunu qazandıran hansı amillərdir?

### Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizin həyatında yeni mərhələyə yol açdı

Sözsüz ki, bu kimi sualların sayını xeyli artıra bilərik. Bu baxımdan ki fəaliyyətin əsası dövlətə, xalqa xidmətin olduğu ünvanda uğurlar da davamlı olacaq, bunlara söykənərək cavablandırılacaq suallar da.

Bu ilin payızında 30 illik yubileyini tarixi Zəfərimizin yaratdığı xoş əhvali-ruhiyyə şəraitində, Qarabağımızın cənnətməkana çevrildiyi, mədəniyyət paytaxtımız olan gözəl Şuşanın müxtəlif rəngarəng tədbirlərə evsahibliyi, uğur salnaməmizdə yeni səhifələr açacaq dövlətlərarası sənədlərin imzalanmasına şahidlik etdiyi, işğaldan azad olunmuş ərazilərimizə xarici aviauçuşların təşkil olunduğu, ölkədaxili avtobus reyslərinin açıldığı və sair nailiyyətlərimizin sevinci fonunda qeyd edəcək Yeni Azərbaycan Partiyasının uğurları çoxdur. Onun təməlində isə müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin yaradıcısı olması, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə zamanın ruhuna uyğun daha da təkmilləşməsi, yeniləşməsi, tutduğu yola sadiqliyi, sözlə əməl birliyi, monolitliyi, dövlətə, xalqa xidməti fəaliyyətinin önündə saxlayaraq yeni-yeni hədəflərə doğru inamla irəliləməsi dayanır.

Ardı 3-cü səh.



# AÇG-nin şah damarı

## “Azəri” yatağından ilk neftin alınmasının 17 ili tamam olur

“Azəri”nin işlənməsi “Əsrin müqaviləsi” adını almış “Azəri-Çıraq-Günəşli” layihəsinin mühüm bir mərhələsidir. Odur ki, bu yataqdan ilk neftin alınması “Əsrin müqaviləsi”nin kulminasiya nöqtəsi sayılır.

Bu, həmin yataqdır ki, 2005-ci ilin mayında ilk dəfə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərinə məhz oradan çıxarılan neft vurulub. Ona görə də fevralda “Azəri”dən ilk neftin alınması adi hadisə deyildi. İndi o tarixi gündən 17 il keçir.

“Azəri” yatağından çıxarılan nefti və səmt qazını Səngəçal terminalına çatdırmaq üçün dənizdə ümumi uzunluğu 600 kilometrdən çox olan sualtı borular çəkilib. Terminalda həmin karbohidrogenləri ilkin emal edib müvafiq kəmərlərə vurmaq üçün geniş infrastruktur yaradılıb.

Bax: səh. 5

# Məqsəd müasir texnika və texnologiyanın köməyilə yüksək məhsuldarlığa nail olmaqdır

Azərbaycanda minlərlə hektar buğda və arpa sahəsi dağlıq və dağətəyi ərazilərdə əkilir. Köhnə kombaynlarla bu sahələri biçmək təhlükəli olmaqla yanaşı, həm də biçin zamanı çoxlu itki yaradırdı.

Problemi aradan qaldırmaq üçün xaricdən 20 “New Holland TC 5.90 HİLLSIDE” dağ kombaynları alındı. Bu yeni nəsil kombaynların əsas xüsusiyyətlərindən biri məhsulu itkisiz yığmasıdır. Dağ kombaynları həmçinin 20 dərəcəli nəmlikdə biçin apara bilir. Bu da vaxt itkisini aradan qaldırır. Onların daha bir üstünlüyü biçilməsi çətin olan torpaq sahələrinin əkinə cəlb edilməsinə imkan verməsidir.

Bax: səh. 5





# Yeni mutasiya aşkarlanıb

## Ona görə arxayınlaşmaq olmaz, qaydalara hökmən əməl edilməlidir

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2020-ci ilin martında pandemiya elan etdiyi COVID-19 infeksiyası hələ də bəşəriyyət üçün ən böyük təhlükə olaraq qalır.

Ardı 7-ci səh.

**Dünya gündəmi**

# Dünyada miqrantların sayı 281 milyona çatır

## BMT-nin Baş katibi Antoniu Quterreş bəyan edib ki, insan alverçiləri nəhəng miqrasiya axınlarını idarə edirlər

Miqrasiya bəşəriyyətin və bütövlükdə dünyanın inkişafının ayrılmaz hissəsidir, lakin o, təhlükəsiz, nizamlı və qanuni olmalıdır.

Ardı 7-ci səh.

# Ermənistanda işsizlik ciddi problemlər yaradır

## Sosial vəziyyətin getdikcə ağırlaşdığı İrəvanda intihar halları artıb

Dünya ictimaiyyətinin təsəvvüründə Ermənistanı “xoşbəxt ölkə” kimi qələmə verməyə səy göstərən dövlət rəsmilərinin cəhdlərinə baxmayaraq, bu ölkədə yaranan acınacaqlı vəziyyət əsl reallıqları əks etdirir və ölkə rəhbərliyinin yalanlarını bir daha üzə çıxarır.

Ardı 7-ci səh.

# Azərbaycan BMT-nin çox fəal üzvüdür





Fevralın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva ilə görüşüb. Qonağı Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən spiker onun BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi kimi fəaliyyətinin qarşılıqlı əməkdaşlığın möhkəmlənməsinə töhfə verəcəyinə inandığını ifadə edib, qonağa bu sahədə uğurlar arzulayıb.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin inkişafına önəm verir. Bildirib ki, bu il ölkəmizin BMT-yə üzv olmasının 30 illiyi tamam olacaq. Azərbaycan həmişə BMT-nin çox fəal üzvü olub və təşkilatın müxtəlif fəaliyyət sahələrini əhatə edən qurumları ilə müsbət əməkdaşlıq əlaqələri qurub. Azərbaycanın 155 üzv dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına 2012-2013-cü illər ərzində qeyri-daimi üzv seçilməsi ölkəmizin beynəlxalq nüfuzunu nümayiş etdirir.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bu gün Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi həm də BMT-nin təşəbbüslərini dəstəkləyir və qlobal narahatlıq doğuran məsələlər üzrə görülən işlərə öz töhfəsini verir. 2020-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü təklif əsasında dövlət və hökumət başçıları səviyyəsində koronavirus (COVID-19) pandemiyası ilə mübarizə üzrə BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyasının çağırıldığını xatırladan spiker bu tədbirin böyük əhəmiyyətini vurğulayıb.

Sahibə Qafarova qeyd edib ki, Qoşulmama Hərəkatının sədri qismində cənab İlham Əliyevin təşəbbüsü ilə 23 mart 2021-ci il tarixdə BMT İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində və 16 dekabr 2021-ci il tarixdə Baş Assambleyanın 76-cı sessiyası çərçivəsində plenar iclasda 179 üzv dövlətin dəstəyi ilə qəbul edilmiş "COVID- 19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə xüsusi əhəmiyyətə malikdir.

Görüşdə Milli Məclisin Sədri Azərbaycanın 44 günlük Vətən müharibəsi və torpaqlarımızın işğaldan azad edilməsi barədə məlumat verərək bildirib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şücaəti sayəsində ərazilərimiz Ermənistanın 30 illik işğalından azad edilib. Bununla Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını öz gücü ilə həyata keçirib. Milli Məclisin Sədri deyib ki, 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli bəyanatla münaqişəyə son qoyulub. Hazırda Cənubi Qafqaz regionunda tamamilə yeni şərait yaranıb. Münaqişə keçmişdə qalıb və biz işğaldan azad olunmuş ərazilərin bərpası ilə məşğuluq. Spiker diqqətə çatdırıb ki, Ermənistanın 30 ilə yaxın davam edən işğalı nəticəsində bütün şəhərlərimiz, kəndlərimiz, maddi-mədəni, dini obyektlər tamamilə dağıdılıb. Təəssüf ki, Azərbaycanın müraciətlərinə baxmayaraq, işğal dövründə UNESKO bu ərazilərdə qiymətləndirmə aparmayıb.

Səmimi görüş üçün təşəkkürünü bildirən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva Azərbaycanın BMT ilə fəal əməkdaşlığından məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycan BMT üçün mühüm məsələlərdə qlobal liderliyi öz üzərinə götürən vacib tərəfdaşdır.

BMT nümayəndəsi yaxın vaxtlarda Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edəcəklərini və orada qiymətləndirmə missiyası həyata keçirəcəklərini diqqətə çatdırıb. O, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası barədə planlarının, xüsusilə də "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin onda böyük təəssürat yaratdığını qeyd edib.

Dayanıqlı inkişaf məqsədlərindən danışan qonaq bunun Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının bərpasında mühüm rol oynadığını diqqətə çatdırıb, ərazilərin minalardan təmizlənməsi, infrastrukturun bərpası və insanların geri qayıdışının təmin edilməsi barədə fikirlərini bölüşüb.

Vladanka Andreeva BMT və Azərbaycan arasında münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib və bunun üçün bütün səylərini səfərbər edəcəyini vurğulayıb.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# "Aqroekspress" layihəsi Azərbaycan-Rusiya iqtisadi-ticari əlaqələrinin genişləndirilməsinə töhfə verəcək

Fevralın 16-da Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan-Rusiya İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının Azərbaycan tərəfdən həmsədri Şahin Mustafayev ilə Rusiya Federasiyası Hökuməti sədrinin müavini, komissiyanın Rusiya tərəfdən həmsədri Aleksey Overçuk arasında videokonfrans formatında görüş keçirilib. Görüşdə həmçinin hər iki ölkənin müvafiq dövlət strukturlarının nümayəndələri iştirak ediblər.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə gündəlikdəki məsələlər, həmçinin iqtisadi-ticari, qarşılıqlı sərmayə qoyuluşu, sənaye, nəqliyyat-logistika, gömrük-sərhəd, neft-qaz, energetika, o cümlədən bərpaolunan enerji, kənd təsərrüfatı və qida təhlükəsizliyi, bank sektoru, regionlararası əlaqələr, humanitar və digər sahələrdə əldə olunmuş uğurlar və əməkdaşlığın perspektivləri geniş müzakirə edilib. Söhbət zamanı dövlət başçılarının ötən ilin noyabr ayında Soçidə keçirilmiş ikitərəfli görüşünün Azərbaycan-Rusiya strateji tərəfdaşlığının növbəti təzahürü olduğu vurğulanıb. Bildirilib ki, 2022-ci il Azərbaycanla Rusiya arasında diplomatik əlaqələrin qurulmasının 30 ilinin tamam olması ilə əlamətdardır.

Görüşdə Hökumətlərarası Komissiyanın 20-ci yubiley iclasının cari ilin aprel-may aylarında Bakıda keçiriləcəyi qeyd olunub. Koronavirus pandemiyasının mənfi təsirlərinə baxmayaraq, Azərbaycan-Rusiya ticarət dövriyyəsinin 2021-ci ildə 12 faizdən çox artdığı və 3 milyard ABŞ dollarına çatdığı məmnunluqla qeyd edilib. Fevralın 12-də "Aqroekspress" layihəsi çərçivəsində Azərbaycandan Rusiyaya ilk yük qatarının yola salınması iki ölkə arasında həyata keçirilən birgə fəaliyyətin uğurlu nəticəsi kimi dəyərləndirilib. Layihənin Azərbaycan-Rusiya iqtisadi-ticari əlaqələrinin genişləndirilməsinə, sahibkarlığın stimullaşdırılmasına töhfə verəcəyinə əminlik ifadə olunub. Ölkələrimiz arasında əməkdaşlığın iqtisadi potensialının reallaşdırılmasında işgüzar missiyaların, eyni zamanda, Rusiya İxrac Mərkəzinin Azərbaycan istiqamətində aktiv fəaliyyəti vurğulanıb. Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının işgüzar dairələr arasında əlaqələrin inkişafında və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsində rolu yüksək qiymətləndirilib.

Videokonfrans formatında keçirilən görüşdə iki ölkə arasında qarşılıqlı investisiya qoyuluşlarının artmasına hərtərəfli dəstək verilməsinin davam etdiriləcəyi, o cümlədən ölkəmiz tərəfindən Rusiya iqtisadiyyatına 1,2 milyard ABŞ dollarından çox sərmayə qoyulduğu, Rusiya tərəfindən isə Azərbaycan iqtisadiyyatına 6 milyard ABŞ dollarından artıq investisiya yatırıldığı qeyd olunub. Rusiya şirkətləri üçün Azərbaycan sənaye parklarında həyata keçirilən layihələrdə iştirak etmək üçün əlverişli imkanların olduğu, o cümlədən işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün 14 şirkətin müraciət etdiyi diqqətə çatdırılıb. Müxtəlif sənaye layihələri, o cümlədən avtomobil, dərman və tikinti materiallarının istehsalı, dəmir yolları, şərabçılıq, helikopter, avtomobil təmiri və sair uğurlu əməkdaşlığın təzahürü kimi qiymətləndirilib.

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın böyük əhəmiyyəti vurğulanıb, Rusiyanın kənd təsərrüfatı məhsulları üzrə Azərbaycanın ən böyük istehlakçısı olduğu bildirilib. Diqqətə çatdırılıb ki, 2021-ci ildə Azərbaycandan Rusiyaya meyvə-tərəvəz ixracının həcmi 6 faiz artıb. Bu baxımdan Azərbaycandan Rusiyaya meyvə və tərəvəzin dəmir yolu vasitəsilə daşınmasına verilmiş icazənin müddətinin 2023-cü il yanvarın 1-nə qədər uzadılması yüksək qiymətləndirilib. Bununla yanaşı, Rusiyanın Azərbaycana mineral gübrələrin və yem bitkilərinin əsas tədarükçüsü olduğu və bu sahədə uğurlu əməkdaşlığın mövcudluğu qeyd edilib. Nəqliyyat-logistika sahəsində əməkdaşlığın səviyyəsi yüksək dəyərləndirilib, iki ölkə arasında avtomobil daşımalarının həcminin ötən il 6,6 faiz, tranzit daşımalarının isə 14,3 faiz artdığı xüsusi vurğulanıb. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyəti vurğulanaraq həm Azərbaycan, həm də Rusiya tərəfindən dəhliz çərçivəsində imkanların genişləndirilməsi üzərində fəal işin aparıldığı bildirilib. Nəqliyyat Dəhlizi üzrə vahid operator mexanizminin yaradılması perspektivləri müzakirə edilib.

Azərbaycan-Rusiya Regionlararası Forumun regionlararası əlaqələrin inkişafında mühüm platforma olduğu və 11-ci Forumun 2022-ci ilin 2-ci yarısında keçirilməsinin planlaşdırıldığı qeyd olunub.

Tərəflər Azərbaycan-Rusiya əlaqələrinin əməkdaşlığın bütün sahələrində möhkəmləndirilməsinə və genişləndirilməsinə yönəlmiş konstruktiv dialoqu davam etdirməyə hazır olduqlarını vurğulayıblar.

# Yüksək qlobal nüfuzun təcəssümü

## NATO Baş katibinin və Polşa Prezidentinin İlham Əliyevə telefon zəngləri həm də Azərbaycanın güclü beynəlxalq mövqeyindən xəbər verir

***Əvvəli 1-ci səh.***

### Dünyanın yüksək ehtiram göstərdiyi lider

Prezident İlham Əliyevlə telefon söhbəti zamanı Baş katib Yens Stoltenberq ötən ilin dekabrında NATO-ya səfərinə və NATO-nun ali orqanı olan Şimali Atlantika Şurasında çıxışına görə dövlətimizin başçısına təşəkkürünü ifadə edib. Telefon danışığı əsnasında Azərbaycan-NATO əlaqələrinin inkişafından məmnunluq ifadə olunub, Cənubi Qafqaz regionunda postmünaqişə vəziyyətinə, dünya enerji bazarındakı mövcud duruma dair fikir mübadiləsi aparılıb.

NATO-nun Baş katibi Avropanın etibarlı qaz təchizatçısı olmasına və qaz ixracını artırmasına görə Azərbaycana təşəkkürünü ifadə edib. NATO-nun 20-yə yaxın ölkəsi Azərbaycandan neft idxal edir. Həmçinin Alyansın 4 ölkəsi Azərbaycandan təbii qaz alır və gələcəkdə bu coğrafiyanın genişləndirilməsi üçün böyük imkanlar var.

Polşa Prezidenti Andjey Duda isə telefon söhbəti zamanı 2019-cu ildə Azərbaycana rəsmi səfərini məmnunluqla xatırladıb. Prezidentlər Azərbaycanla Polşa arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparıblar. Andjey Duda ATƏT-in fəaliyyətdə olan sədri kimi Mərkəzi və Şərqi Avropa regionunda təhlükəsizlik məsələlərinə toxunub və ATƏT çərçivəsində atılan addımların gərginliyin azaldılmasına xidmət edəcəyini vurğulayıb.

NATO-nun Baş katibi Yens Stoltenberqin, həm də Polşa Prezidenti Andjey Dudanın telefon zəngləri zamanı Ukrayna ətrafında cərəyan edən hadisələrə dair də fikir mübadiləsi aparılıb. Bu da təsadüfi deyildi. Çünki Azərbaycan dövləti uzun illərdir dünyada sülhün təmin olunmasında fəal iştirak edir. Respublikamız səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktiki fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. Prezident İlham Əliyev regional münaqişələrin, siyasi gərginliklərin aradan qaldırılmasında fəal rol oynayır, barışdırıcı missiya həyata keçirir.

Bu baxımdan NATO-nun Baş katibinin və Polşa Prezidentinin İlham Əliyevə zəngləri Azərbaycan Prezidentinin öz nüfuzu ilə siyasi-hərbi gərginliklərin aradan qaldırılmasına verə biləcəyi böyük töhfələrdən irəli gəlir. NATO-nun və Avropa İttifaqının üzvü olan dövlətlər bu məsələdə Prezident İlham Əliyevin rolunu və mövqeyini anlayır və dəyərləndirirlər.

Azərbaycan regionun lider dövləti, qlobal miqyasda söz sahibidir. Bu yolda hər cür aşırımlardan inamla keçən, qarşıya çıxan maneələri uğurla dəf edən respublikamız öz siyasətinin prioritetlərini, milli maraqlarını qətiyyətlə və inamla reallaşdırır. 2020-ci ilin Vətən müharibəsi bunun bariz nümunəsidir. Azərbaycanın yürütdüyü siyasət həm region, həm də beynəlxalq səviyyədə pozitiv geosiyasi prosesləri stimullaşdırır. Eyni zamanda Azərbaycan öz siyasəti ilə sülh, əməkdaşlıq və inteqrasiya istiqamətində dünyaya öz töhfələrini verir.

Həm NATO-nun Baş katibinin, həm də Polşa Prezidentinin telefon zəngləri göstərir ki, respublikamızın yürütdüyü müstəqil siyasət dünyanın güc mərkəzləri, Avropa İttifaqının üzvü olan dövlətlər tərəfindən hörmətlə qarşılanır. Bu siyasəti reallaşdıran Prezident İlham Əliyev isə bütün siyasi mərkəzlər tərəfindən yüksək ehtiramla qəbul edilən liderdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Şeyxülislam Allahşükür Paşazadə KAICIID Direktorlar Şurasının növbədənkənar sessiyasında iştirak edib

Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Direktorlar Şurasının videokonfrans formatında keçirilən növbədənkənar sessiyasında iştirak edib.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, "Shanti Ashram" təşkilatının direktoru Kezevino Aramın sədrliyi ilə keçən sessiyada Şeyxülislam A.Paşazadə ilə bərabər, Direktorlar Şurasında təmsil olunan Ekumenik Patriarxatının Kadıköy (Xalxidon) Mitropoliti Emmanuel, Vatikanın Dinlərarası Dialoq üzrə Pontifik Şurasının sədri Kardinal Migel Ayuso, Livan Milli Xristian-Müsəlman Dialoq Komitəsinin baş katibi Məhəmməd Sammak, Yaponiya Rizxo Kosey-Kay Buddist təşkilatının prezidenti Koşo Nivano, İngilis kilsəsinin Dinlərarası məsələlər üzrə məsləhətçisi Riçard Sudvort, İmam Məhəmməd bin Saud Universitetinin təmsilçisi Hamad əl-Məcid, Amerika Yəhudi Komitəsinin Dinlərarası məsələlər üzrə beynəlxalq direktoru baş ravvin David Rosen iştirak ediblər.

Tədbirin gedişində gündəliyə daxil olan Strateji plan və cari məsələlər ətrafında müzakirələr aparılıb.

Sessiyada çıxış edən Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan və Qafqaz müsəlmanlarının səmimi salamlarını və xeyir-dualarını iştirakçılara çatdırıb. Sonra QMİ sədri gündəlikdə duran, müzakirə olunan məsələlər, o cümlədən mərkəzin Strateji planı barədə fikir və tövsiyələrini bildirib.

Sessiyada çıxış edən Vatikanın Dinlərarası Dialoq üzrə Pontifik Şurasının sədri Kardinal Migel Ayuso QMİ-nin sədri Şeyxülislam A.Paşazadənin bu yaxınlarda Vatikana səfərinə toxunaraq, onun Papa Fransisklə görüşünün dinlərarası dialoqun inkişafına töhfə olduğunu xüsusi qeyd edib. Belə hörmətli, nüfuzlu şəxsiyyəti, böyük bir icmanın rəhbəri olan dini lideri Vatikanda qəbul etmələrindən məmnunluğunu ifadə edən Kardinal Ayuso bu cür uğurlu dinlərarası əməkdaşlıq nümunəsinin KAICIID üçün önəmli perspektivlərindən bəhs edib.

Dünyanın ən nüfuzlu beynəlxalq hökumətlərarası təşkilatlarından olan KAICIID-in 9 nəfərlik Direktorlar Şurasında yer alan müsəlman dini lider Şeyxülislam Allahşükür Paşazadə pandemiya şəraitinə baxmayaraq, bu təşkilatın proqram üzrə layihə və təşəbbüslərin həyata keçirilməsi yönündə səylərinin davam etdirildiyini rəğbətlə vurğulayıb.

Onlayn sessiya məhsuldar keçib.

# Qarabağın quruculuğu ümummilli fəaliyyətə çevrilir

## İşğaldan azad olunmuş ərazilərin bərpasına investisiya yatıracaq yerli və xarici iş adamlarına dövlət hər cür dəstək göstərəcək

***Əvvəli 1-ci səh.***

Prezident İlham Əliyev bütün görülən işlərin dövlətin ayırdığı vəsaitlər hesabına həyata keçirildiyini söyləyərək bu proseslərdə yerli və xarici investorların da iştirakını məqbul sayır. Fevralın 11-də "Qobu" yarımstansiyasının və "Qobu" Elektrik Stansiyasının açılışında və Ağdama səfəri çərçivəsindəki çıxışında dövlət başçısı investorlara çağırış edərək onları əməkdaşlığa çağırdı.

Prezident son illərdə prioritet sahə kimi müəyyənləşdirilən bərpaolunan enerji növlərinin inkişafı istiqamətində görülən işlərdən söz açaraq dedi ki, təbii qazı və neft məhsullarını əvəzləmək üçün ölkələr məcburən bu sahəyə fikir verirlər, investisiyalar qoyurlar. Azərbaycanda isə əksinədir. Qüdrətli ölkəmiz bundan sonra ən azı 100 il həm özünü, həm də tərəfdaşlarını təbii qazla təchiz edə bilər. Buna baxmayaraq, bu gün Azərbaycan bərpaolunan enerji növlərinə sərmayə qoyur: "Biz təbii qazdan, sudan, günəşdən, küləkdən istifadə edirik. Bunu nəzərə alaraq gələcəkdə ətraf mühiti qorumaq üçün biz mütləq bərpaolunan enerji növlərini yaratmalıyıq. İkinci səbəb ondan ibarətdir ki, bizim buna imkanımız var, potensialımız var. Ölkədə o qədər gözəl investisiya iqlimi yaradılıb ki, həm özümüz, həm də xarici firmalar buna böyük maraq göstərirlər. Bu marağı biz yaratmışıq. Əgər neft-qaz sahəsində uğurlu siyasətimiz aparılmasaydı və tərəfdaşlar bizə inanmasaydılar, o cümlədən Azərbaycanın gələcəyinə inanmasaydılar, bu qədər böyük xarici sərmayə qoymazdılar".

### Bu il Qarabağ və Şərqi Zəngəzurda 5 SES-in inşasının tamamlanması nəzərdə tutulur

Ötən ay bu sahədə ən böyük şirkətlərdən biri - "ACWA Power" və Azərbaycan arasında imzalanmış kontrakt əsasında təməli qoyulan 240 meqavatlıq külək-elektrik stansiyasını buna misal göstərmək olar. Hazırda BP şirkəti ilə Cəbrayıl rayonunda 200 meqavatdan çox gücə malik olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Günəş-elektrik stansiyasının inşası ilə bağlı Birləşmiş Ərəb Əmirliklərinin Mazdar şirkəti ilə danışıqlar aparılır. Hər iki layihə təqribən 400-450 meqavat gücündədir. "Xudafərin" və "Qız qalası" su anbarlarında İranla bərabər 280 meqavatlıq elektrik stansiyalarının tikintisi nəzərdə tutulur.

İşğaldan azad edilmiş torpaqlarımızda keçən il "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2", Kəlbəcərdə Lev çayı üzərində 4 su-elektrik stansiyası yenidən qurulub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bu il 5 su-elektrik stansiyasının inşasının tamamlanması nəzərdə tutulur. Bu ərazilərdə təqribən 25-30 meqavat gücündə stansiyalar olacaq. Həmçinin azad edilmiş torpaqlarda ermənilər tərəfindən dağıdılmış 30-a yaxın su-elektrik stansiyası qurulacaq.

İlham Əliyev məhz bu sahəyə sərmayə yatırmaq üçün də yerli və xarici investorlara çağırış etdi: "Dövlət onsuz da bu işləri görəcək və görür. Amma yaxşı olardı ki, özəl şirkətlər də bu sahəyə investisiya qoysunlar. Əlbəttə ki, bizim böyük potensialımız Kəlbəcər-Laçın zonasındadır və azad edilmiş digər torpaqlarda. Mən bu rəqəmləri bildirmişdim, 9 min meqavatdan çox təsdiq edilmiş enerji potensialı var, günəş və külək stansiyalarını nəzərə alaraq. Bizim ən böyük potensialımız Xəzər dənizindədir və təsadüfi deyil ki, hazırda dünyanın aparıcı enerji şirkətləri Xəzər dənizinə çox böyük diqqət yetirirlər, bizə artıq təkliflər gəlməyə başlamışdır. Xəzər dənizinin bərpaolunan enerji istehsalı ilə bağlı potensialı 150 min meqavatdan çoxdur. Ona görə bütün bu işləri biz düzgün planlaşdırmalıyıq".

### Ağdam bərpadan sonra regionun sənaye mərkəzinə çevriləcək

Fevralın 13-də Ağdama səfəri çərçivəsində Prezident vurğuladı ki, işğaldan azad edilmiş rayonlarımızın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılıb və qısa müddət ərzində bu, konkret nəticələrə gətirib çıxaracaq.

Xatırladaq ki, ilk Baş planı təsdiq edilən rayon Ağdamdır. Hazırda plana uyğun olaraq Ağdamda geniş tikinti-quruculuq işləri həyata keçirilir. Baş plan və aparılan işlər göstərir ki, Ağdam bərpadan sonra regionun sənaye mərkəzinə çevriləcək. Ağdamda yeni yaradılacaq sənaye parkında 110 milyon manatlıq sərmayə qoyuluşu nəzərdə tutulub. Artıq 5 rezidenti olan sənaye parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Dövlət tərəfindən infrastruktur formalaşdıqdan sonra yalnız sənaye parkında deyil, digər istiqamətlərdə də investisiyaların cəlb edilməsi nəzərdə tutulur.

İlham Əliyev rayonun ümumi potensialından, quruculuq işlərindən danışarkən bir daha iş adamlarına çağırış etdi. Dövlət başçısı sahibkarları həm Ağdama, həm də işğaldan azad edilmiş bütün digər ərazilərə sərmayə qoymağa çağırdı. Çünki bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb. Dövlət sahibkarlara kömək edir, həm mənəvi-siyasi dəstək verir, həm də güzəştli kreditlər ayırır: "Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar".

İlham Əliyev vurğuladı ki, azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik. Əlbəttə, dövlət öz tərəfindən lazımi addımları atır və atacaq. Ağdam şəhərinin Baş planı hazırlanıb, Baş plan əsasında işlər görülür. Əlbəttə ki, özəl sektorun nümayəndələri bu işlərdə fəal olmalıdırlar.

İlham Əliyev əminliklə vurğuladı ki, bu gün görülən bütün işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq: "Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!"

Bir sözlə, Prezidentin investorlara çağırışı və iş adamlarının bu çağırışa dəstək vermələri onu deməyə əsas verir ki, tezliklə işğaldan azad edilən torpaqlarımızda müxtəlif sahələrə böyük investisiyalar yatırılacaq. Bu isə, ümumilikdə Azərbaycana böyük iqtisadi dividendlər qazandıracaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# YAP Gənclər Birliyinin "Viki Klub" layihəsinə start verilib

Fevralın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyi tərəfindən dünyanın ən böyük elektron ensiklopediyası hesab olunan Vikipediya platformasında Azərbaycanla bağlı mövcud məlumatların təkmilləşdirilməsi, təhrif olunmuş məlumatlara düzəlişlərin edilməsi və bu istiqamətlərdə fəaliyyət göstərən peşəkar şəxslərin sayının artırılması məqsədilə təşkil olunan "Viki Klub" layihəsinin açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, çıxış edən YAP Gənclər Birliyinin sədr müavini Sevinc Qasımova "Qorqud" Vikipediya metodik klubunun tərəfdaşlığı ilə baş tutan layihə çərçivəsində peşəkar Vikipediya təlimçiləri tərəfindən İKT sahəsindəki bilik və bacarıqları nəzərə alınmaqla seçilmiş 30 gəncin 10 hissəli təlim prosesinə cəlb olunduğunu bildirib. Onun sözlərinə görə, təlimlərin yekununda layihə iştirakçıları tam şəkildə Vikipediya platforması üzərindən yeni məqalələrin yaradılması, düzəlişlərin edilməsi və digər bacarıqlara yiyələnmiş olacaqlar.

"Qorqud" Vikipediya metodik klubunun eksperti Sübhan Xıdırzadə deyib ki, qarşıya qoyulan hədəflər böyükdür və layihə iştirakçıları ilə böyük işlərə nail olunacaq.

Bildirilib ki, ilkin olaraq 30 gəncin iştirakı ilə formalaşdırılan klub mütəmadi olaraq ölkəmizlə bağlı yeni məqalələrin hazırlanıb yerləşdirilməsi, o cümlədən mövcud yazıların təkmilləşdirilməsi prosesini həyata keçirəcək. Klubun fəaliyyətinə dair mütəmadi olaraq hesabatlar hazırlanacaq.

Sonra təlimlərə start verilib.

# YAP daha böyük zəfərlərin siyasi istinadgahı olacaq

## Düzgün siyasi hədəflər, xalqın maraqlarını əks etdirən fəaliyyət və Azərbaycan amalı partiyamızın davamlı nailiyyətlərinin əsas təməlidir




*Əvvəli 1-ci səh.*

Bu gün düşmən tapdağından azad edilmiş tarixi torpaqlarımızda bərpa-quruculuq işlərinin geniş vüsət alması da Azərbaycan dövlətinin möhkəm təmələ əsaslanan siyasətinin nəticəsidir. Çünki Azərbaycan dövləti sıfırdan başladığı bu nəhəng işləri özünün maliyyə imkanları hesabına həyata keçirir. Müasir müstəqil Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin yaratdığı, son 18 ildən artıq müddətdə Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi Yeni Azərbaycan Partiyasının çoxminli üzvləri 44 günlük Vətən müharibəsində necə birlik, həmrəylik göstərdilərsə, bərpa-quruculuq işlərinə də öz töhfələrini vermək üçün eyni fədakarlığı nümayiş etdirirlər. Məhz bütün bunlara görə hər zaman Azərbaycanın bugünü və gələcəyi naminə çalışan, adının ən yüksək zirvələrdə olmasına səy göstərən Yeni Azərbaycan Partiyasına milyonların sevgisi böyükdür.

Bu günün prizmasından dünənə baxarkən bu fikri böyük inamla qeyd etmək olar ki, 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. Təbii ki, hər bir hadisənin baş verməsi üçün tarixi zərurət olmalıdır. Yeni Azərbaycan Partiyasının yaradılması da o illərin reallıqlarından irəli gələn, qarşısıalınmaz prosesə və tələbə çevrilən böyük ictimai-siyasi hadisə idi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının ilk illərində ölkədə yaşanan xaos, anarxiya, özbaşınalıq mühiti yaddaşlarda, o cümlədən tariximizin qaranlıq bir səhifəsi olaraq orta məktəb dərsliklərində yer almışdır. Bu fikir daim vurğulanır ki, dövlət, xalq o zaman güclü, qüdrətli olur ki, onun gələcəyini düşünən lideri olur. Təəssüf ki, Azərbaycana müstəqilliyimizin bərpasının ilk illərində bu ali keyfiyyətlərə sahib olmayan, vətəninin, xalqının gələcəyini, dövlət maraqlarını deyil, özlərinin şəxsi mənafeyini düşünən, imkanlarından qat-qat böyük ambisiyalarla yaşayan, heç bir idarəçilik qabiliyyəti, təcrübəsi olmayan şəxslərin rəhbərlik etməsi ölkəmizi uçurumun kənarına gətirib çıxarmışdı. Ölkədə xaosun, anarxiyanın, özbaşınalıqların, iqtisadi və sosial böhranın baş alıb getməsi, ərazilərimizin bir-birinin ardınca ermənilər tərəfindən işğalı, Azərbaycanın müstəqilliyini itirmək təhlükəsini yaşaması, vətəndaş qarşıdurmasının pik həddə çatması xalqın sabaha ümidini tamamilə itirmişdi. Həmin dövrü "O vaxt Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat cütlüyü xalqın inamını tamamilə itirmişdi. Onların antimilli siyasəti xalqda böyük hiddət doğururdu. Bacarıqsızlıq, qeyri-peşəkarlıq nəticəsində ölkə, demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkəmizi xaos, anarxiya bürümüşdü, qeyri-qanuni silahlı birləşmələr küçələrdə əlisilahlı gəzirdilər, insanları incidirdilər. O illərdə ölkəmizi kütləvi rüşvətxorluq bürümüşdü. Torpaqlarımızın işğal altına düşməsi, iqtisadi böhran, sənaye böhranı, hərbi böhran, demək olar ki, ölkəmizin gələcək müstəqil həyatına böyük təhlükə yaradırdı" sözləri ilə xarakterizə edən Prezident İlham Əliyev xalqa nicat yolunda bələdçilik edən Ulu Öndər Heydər Əliyevin çətin dövrlərdə xilaskarlıq missiyasını yerinə yetirməsini, Yeni Azərbaycan Partiyasının yaranmasını mühüm tarixi hadisə kimi dəyərləndirmişdi.

Çətin məqamlarda heç kimdən çəkinmədən, heç bir təhdiddən, təqibdən qorxmadan öz sözünü qətiyyətlə deyən, insanlar arasında ictimai rəyi formalaşdıran, xalqın nur çırağı olan ziyalılarımız o zaman vətəndaşlıq məsuliyyətlərini, Vətən qarşısında borclarını yerinə yetirərək xalqın böyük əksəriyyətinin arzu və istəklərini ifadə etməklə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı Ulu Öndər Heydər Əliyevə müraciət etmişdilər. Ozamankı "91-lər"in üzvü kimi bu gün böyük qürur hissi keçirirəm ki, mən də bu proseslərin iştirakçıları sırasında olmuş, Azərbaycanımızın həyatında dönüş nöqtəsi kimi dəyərləndirilən Yeni Azərbaycan Partiyasının yaradılmasında fəal iştirak etmişəm. Tarixə qızıl hərflərlə yazılan Ulu Öndər Heydər Əliyevə ünvanlanmış "Azərbaycan Sizin yolunuzu gözləyir!" müraciətinin müəllifi olan "91-lər"in arasında olmaq mənim üçün böyük xoşbəxtlik və qürurdur. Bu reallıq hər zaman böyük minnətdarlıq hissi və fəxrlə qeyd edilir ki, "91-lər"in Ulu Öndərə müraciəti müstəqilliyimizin əbədiliyinin təmin edilməsində əhəmiyyətli rol oynadı.

Ulu Öndər müstəqilliyimizin qorunması üçün görüləcək işlərin təsnifatını ardıcıllıqla müəyyənləşdirmişdi: Azərbaycanın müharibə vəziyyətindən çıxması, sosial-iqtisadi böhranın aradan qaldırılması, biliyi, bacarığı, təcrübəsi olanların dövlət işlərinə cəlb edilməsi, qanunun aliliyinin təmin olunması, respublikanı məhvə sürükləyən zərərli meyillərin qarşısının alınması vacib vəzifə kimi qarşıya qoyulmuşdu. Bu kimi taleyüklü məsələlərin həlli isə təbii ki, yalnız xalqı öz ətrafında birləşdirəcək, insanların sabaha inamını gücləndirəcək vahid siyasi təşkilatın yaradılması ilə mümkün idi. Beləcə müraciətdə irəli sürülən Yeni Azərbaycan Partiyasının yaradılması təşəbbüsü reallaşdı. Ümummilli Liderin "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur" sözləri Azərbaycan xalqı üçün ümid yeri oldu.

Bu gün Yeni Azərbaycan Partiyası nəinki sıralarında birləşən 800 minə yaxın üzvünün, ümumiyyətlə, xalqın böyük əksəriyyətinin üz tutduğu ən etibarlı ünvan, insanların güvənc yeridir. Fəaliyyəti, ideyaları, apardığı siyasət, uzunmüddətli, dayanıqlı inkişaf konsepsiyası ilə ictimaiyyətin böyük dəstəyini qazanan Yeni Azərbaycan Partiyasının xalqla birliyi sayəsində dövlətçiliyimizin əsasları möhkəmləndirildi. İnsanlarda vahid milli ideologiya, azərbaycançılıq təfəkkürü formalaşdı. Beynəlxalq səviyyədə aparılan uğurlu siyasət nəticəsində artıq tarixə çevrilən və 30 il Azərbaycan xalqı üçün həlli müşkül problem olan Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri, ölkəmizin dünəni və bugünü ilə bağlı əsl həqiqətlər dünya ictimaiyyətinə çatdırıldı.

Hər bir ölkənin dünyaya təqdimatında, beynəlxalq əlaqələrinin inkişafında hakim partiyaların rolu inkaredilməzdir. Daim fəaliyyətində beynəlxalq əməkdaşlığa xüsusi önəm verən Yeni Azərbaycan Partiyası bu əlaqələrin inkişafına öz töhfələrini gündən-günə artırır. YAP-ın təşəbbüsü ilə keçirilən tədbirlər Azərbaycan reallıqlarının təbliğində əhəmiyyətli rol oynayır, qarşılıqlı səfərlər çərçivəsində imzalanan sənədlər ölkələr arasında münasibətlərin inkişafında yeni mərhələnin başlanmasına böyük dəstək olur.

Partiyamızın fəaliyyət istiqamətlərinə və prinsiplərinə diqqət yetirdikdə onun 30 ildə Azərbaycanın bugünü və gələcəyi naminə gördüyü işlərin aydın mənzərəsi göz önündə canlanır. Müstəqilliyimizin bərpasının ilk illərində ölkə iqtisadiyyatının inkişafı üçün xarici sərmayənin cəlb edilməsi əsas şərt idi. O dövrdə məhz Ulu Öndər Heydər Əliyevin nüfuzu sayəsində Azərbaycanın iqtisadi inkişafını şərtləndirən və çoxlarına möcüzə kimi görünən "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycanın gələcək iqtisadi inkişafının təməli qoyuldu.

Bu, artıq real həyatda öz təsdiqini tapmış gerçəklikdir ki, möhkəm təməl bütün uğurların əsasıdır. Məhz bu reallığa əsaslanaraq əminliklə deyə bilərik ki, əgər Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bu gün müstəqil və qüdrətli Azərbaycan adlı dövlətin varlığından söhbət gedə bilməzdi. Məhz Ulu Öndərin müasir müstəqil Azərbaycan dövlətinin sükanı arxasında dayandığı 1993-2003-cü illərdə yaradılan möhkəm təməl 2003-cü ildən başlanan Böyük Yolun uğurlu davamını şərtləndirdi. Bu gün Azərbaycanı dünyanın qüdrətli dövlətləri sırasına çıxaran, islahatçı ölkə kimi tanıdan Prezident, YAP-ın Sədri İlham Əliyevin vurğuladığı kimi, Ulu Öndər Heydər Əliyevin irsinə sadiq qalan, dünya siyasətinə təsir imkanları genişlənən Azərbaycan bütün istiqamətlər üzrə konseptual yanaşma və proqramlar əsasında çox böyük tarixi uğurlara imza atır, beynəlxalq aləmdə böyük nüfuz, rəğbət və dəstək qazanır. Qlobal enerji, nəqliyyat layihələrinin təşəbbüskarı kimi dünyada mövqeyi möhkəmlənən, özünə güvənən, daxili resurslardan səmərəli istifadə edən, hərbi-texniki qüdrəti ilə diqqət çəkən Azərbaycan bu gün müasir ənənələrə bağlı olan güclü dünyəvi dövlət kimi bütün dünyada nüfuz qazanıb. Azərbaycanın müstəqilliyinin daimiliyi, sarsılmazlığı təmin edilib. Davamlı inkişafda rolu və payı olan YAP-ın hər bir üzvü bu nailiyyətlərin qazanılmasına töhfələr verir.

### Yeni Azərbaycan Partiyasına rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil

Müxalifət partiyası kimi yaranan YAP 1993-cü ildə partiyanın Sədri, Ulu Öndər Heydər Əliyevin xalqın yekdil səsi ilə Prezident seçilməsi, eyni zamanda 1995-ci ildə keçirilən parlament seçkilərində qələbə qazanması ilə iqtidar partiyasına çevrildi. O vaxtdan bugünədək keçirilmiş bütün prezident, parlament, bələdiyyə seçkilərində böyük səs çoxluğu ilə qalib gələn YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası bütün seçkilərdə qalib gəlməsi ilə tarixə adını qələbələr partiyası kimi də yazıb. Hər bir seçki partiyanın həyatında bu baxımdan diqqətçəkən olur ki, YAP-a xalqın inamı və etimadı ildən-ilə artır. Bu da Yeni Azərbaycan Partiyasının daim yeni hədəflərə doğru inamla irəliləməsi, "Güclü dövlət, yüksək rifah!" prinsipini fəaliyyətinin önündə saxlaması, xalqın arzu və istəklərini həyata keçirməsi qəbul etdiyi qərarların, irəli sürdüyü təşəbbüslərin hər birinin bugünümüzə və gələcəyimizə hesablanması sayəsində mümkün olur. İlk dəfə seçkilərə "Yeni, müstəqil Azərbaycan uğrunda!" şüarı ilə qatılan Yeni Azərbaycan Partiyasının illər keçdikcə dəyişən şüarları təbii ki, dövrün, zamanın tələbləri ilə yanaşı, Azərbaycanın qazandığı uğurlara söykənir. Odur ki, son seçkilər "Yeni hədəflərə doğru İlhamla irəli!" çağırışına əsaslanır.

Əvvəldə də qeyd etdiyim kimi, Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdanda Azərbaycan çox ağır durumda idi. Ulu Öndərin qayıdışı Azərbaycanı azərbaycanlılara, azərbaycanlıları isə özünə qaytardı. Azərbaycanın dövlətçilik tarixində 1993-2003-cü illər sabitlik, inkişaf illəri olmuşdur. Ulu Öndər Heydər Əliyev özünün müdrik, titanik fəaliyyəti ilə bir daha sübut etdi ki, ən ağır, böhranlı vəziyyətdən belə çıxış yolu var. Bu çıxış yolu qətiyyət, cəsarət, müstəqil siyasət və düşünülmüş addımlardır.

Azərbaycanın qurucusu olduğunu ölkəmizə rəhbərliyinin hər iki dövründə əməli fəaliyyəti ilə nümayiş etdirən, xalqın milli məfkurə və təfəkkürünü inkişaf etdirməklə ən böyük azərbaycanlı olduğunu sübuta yetirən, dünyanın bütün ölkələrinə səpələnmiş soydaşlarımızı vahid azərbaycançılıq məfkurəsi ətrafında təşkilatlandıran, xalqı cəmiyyətin siyasi sistemində aparıcı qüvvə, möhtəşəm siyasi güc mərkəzi kimi birləşdirən Ulu Öndər özünün şəxsi nümunəsi ilə bir daha təsdiqlədi ki, mənalı həyatını xalqına həsr etmiş tarixi şəxsiyyətdir. Düşünülmüş və məqsədyönlü siyasəti ilə yeni Azərbaycan yaradan Ümummilli Lider ölkəmizi qısa zamanda sabitlik diyarına çevirdi. Bildirdi ki, əgər ölkədə ictimai-siyasi sabitlik olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft müqaviləsi imzalandı. Bu mühüm addım Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və davamlı inkişafının əsasını qoydu. Ümummilli Lider dünya təcrübəsinə istinadən bildirirdi ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, qarşılıqlı təcrübə mübadiləsi olmadan, səylər birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. "Əsrin müqaviləsi" Azərbaycanın bugününə və sabahına inamı artırdı. Yeni-yeni sazişlər, anlaşma memorandumları imzalandı, Azərbaycanın malik olduğu resurslardan səmərəli istifadə etmək imkanları genişləndi.

Ümummilli Lider Azərbaycanın beynəlxalq aləmdə təqdimatını apardı, onun uğurlu daxili və xarici siyasəti nəticəsində ölkəmizin imzası imzalar arasında göründü. Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində bu gün Azərbaycan dünyanın ən mötəbər nüfuzlu beynəlxalq təşkilatlarında - BMT-də, ATƏT-də, AŞ PA-da, İƏT-də, Qoşulmama Hərəkatında tamhüquqlu üzv kimi təmsil olunur, NATO-nun, Avropa Birliyinin proqramlarında iştirak edir. İndi elə bir qlobal məsələ yoxdur ki, orada Azərbaycanın mövqeyi nəzərə alınmasın. Ölkəmizin Şərqlə Qərb arasında körpü olmasının, enerji-nəqliyyat mərkəzi kimi maraq doğurmasının, sivilizasiyaların qovuşduğu məkana çevrilməsinin əsasında da Ulu Öndərin hər zaman üçün aktual olan ideyaları durur.

Azərbaycanda aparılan demokratik islahatlar əsasında inkişaf edən Yeni Azərbaycan Partiyasının genişlənən beynəlxalq əlaqələri də göstərir ki, Ulu Öndərin ideyaları əsasında mütərəqqi təşkilat kimi özünü doğruldan YAP dünənin, bugünün, sabahın partiyası adını şərəflə doğruldur. Vətəninə bağlı insanların birləşdiyi partiyanın regionda artan nüfuzu Azərbaycanın siyasi, iqtisadi inkişafının, ölkədəki milli birliyin və həmrəyliyin nəticəsidir. Məhz bu uğurlara söykənərək əvvəldə qeyd etdiyimiz kimi, Yeni Azərbaycan Partiyası istər 1993-2003, istərsə də 2003-2022-ci ilə qədərki dövrdə ölkədə keçirilən bütün seçkilərə yeni şüarlarla qatılaraq respublikamızın sonrakı inkişafının prioritetlərini açıqladı.

Dövlət başçısı İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayında müstəqilliyimizin bərpasının ilk illərində yaşananların təhlili fonunda bildirmişdir ki, əlbəttə ki, o dövrü düzgün təhlil edərkən biz gələcəkdə də özümüzü hər hansı bir risklərdən sığortalamış olarıq. O dövrü bilməyən, o vaxt yaşamayan gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik. Kimə biz borcluyuq. Əgər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, bir yarımmüstəmləkə kimi yaşaya bilərdi. "Biz bu tarixi bilməliyik, bilirik və bundan sonra öz fəaliyyətimizi bu möhkəm təməl üzərində quracağıq, necə ki, bu vaxta qədər qurmuşuq" söyləyən ölkə Prezidenti onu da əlavə etmişdir ki, 1993-2003-cü illər həlledici illər olmuşdur. Məhz o illərdə dövlətçiliyin əsasları qoyuldu. 20 Yanvar faciəsinə siyasi qiymət verilmişdir. Nə üçün Xalq Cəbhəsi-Müsavat cütlüyü 20 Yanvar faciəsinə siyasi qiymət verməmişdir? Çünki onların da əli Azərbaycan xalqının qanına batmışdır. Onlar da 20 Yanvar faciəsini örtbasdır etmək istəyirdilər. Yalnız Heydər Əliyev 20 Yanvar faciəsinə siyasi qiymət verdi. Konstitusiya yalnız Heydər Əliyevin dövründə qəbul edildi. Siyasi islahatlara start verildi, çoxpartiyalı sistem yarandı. Azərbaycan beynəlxalq təcriddən çıxdı. Ölkəmizə böyük investisiyalar cəlb edildi. Ordu quruculuğuna start verildi. Kadrların yetişdirilməsi ilə bağlı önəmli addımlar atıldı. O kadrlar ki, bu gün də ölkəmizin müxtəlif sahələrinin inkişafına öz töhfələrini verirlər.

Təbii ki, bu inkişafa, tərəqqiyə gətirib çıxaran siyasətə inam xalqın 2003-cü ildə Heydər Əliyev siyasətinə səs verməsində də öz aydın ifadəsini tapdı. Seçkilərdən öncə 1 oktyabr 2003-cü il tarixdə xalqa müraciətində Ümummilli Lider bildirmişdi ki, üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir: "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Göründüyü kimi, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək taleyini düşünərək növbəti inamın və etimadın ünvanlarını göstərmişdir: Cənab İlham Əliyev və milyonların partiyası olan Yeni Azərbaycan Partiyası. Cənab İlham Əliyevin 2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilməsi Heydər Əliyev siyasətinin təntənəsi, onun yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının qələbəsi idi. Ulu Öndərin partiyanın yarandığı gündən onu dünənin, bugünün və gələcəyin partiyası kimi təqdim etməsi, "Yeni Azərbaycan Partiyasına xidmət etmək dövlətə, xalqa xidmət etmək deməkdir" çağırışını etməsi YAP-ın gələcəyinə inamdan irəli gəlirdi. Heç bir qüvvənin Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq imkanında olmaması fikri hələ o dövrlərdə səslənmişdi. Çünki əvvəldə də qeyd etdiyimiz kimi, müxalifət partiyası kimi yaranan Yeni Azərbaycan Partiyası dövlətinə, xalqına müxalifətdə olmadı, daim Azərbaycanın inkişafına, tərəqqisinə çalışdı. Partiyanın yaradıcısı və qurucusu olan Ümummilli Lider Heydər Əliyev təşkilatın formalaşması üçün elə mükəmməl və əbədiyaşar prinsiplər müəyyənləşdirmişdir ki, bu göstəricilərdə partiya üzvlərinin və bütünlükdə xalqın partiyamıza, ölkəmizin gələcəyinə bəslədiyi bütün ümidlər öz ifadəsini tapır. Xilaskar bir siyasi təşkilat kimi fəaliyyətə başlayan Yeni Azərbaycan Partiyası ona bəslənilən ümidləri həmişə doğruldub. Heydər Əliyev ideyalarının əsasında fəaliyyət göstərən YAP milli birlik, həmrəylik prinsiplərini əsas tutaraq yeni müasir Azərbaycan naminə fəaliyyət istiqamətlərini genişləndirdi. Ölkəmiz məhz bu prinsip və ideyalar əsasında inkişaf etdirilir. Bu ideyaların dəstəklənməsinin ən bariz nümunəsi isə Ulu Öndər Heydər Əliyev siyasi məktəbinin yetirməsi olan cənab İlham Əliyevin son 18 ildən artıq dövrdə ölkədə keçirilən prezident seçkilərində qələbəsini təkrarlamasıdır. Xalqın öz Prezidentinə sevgisi sonsuzdur.

Yeni Azərbaycan Partiyasının sıralarında birləşən 800 minə yaxın üzvün böyük əksəriyyətini, təxminən 40 faizini gənclər təşkil edir. YAP hər bir gənc üçün siyasi təkmilləşmə məktəbidir. Gənclərin maraqlarına uyğun fəaliyyət proqramının həyata keçirilməsi üçün partiya böyük potensiala və imkanlara malikdir. Həyata keçirilən bütün islahatların mərkəzində bu prinsiplər dayanır: Azərbaycanı inkişaf etdirmək, müasirləşdirmək və modernləşdirmək. Bu siyasəti yalnız gələcəyimiz olan gənclərin birgə iştirakı, birliyi və həmrəyliyi ilə həyata keçirə bilərik.

Yeni Azərbaycan Partiyası cəmiyyətin avanqard qüvvəsi kimi yerini və rolunu möhkəmləndirir. Partiya zəngin seçki təcrübəsinə malikdir. Hər bir seçki əvvəlki seçkilərdən daha demokratikliyi, şəffaflığı, beynəlxalq standartlara uyğun təşkil olunması ilə diqqət çəkir. Seçki Məcəlləsində zamanın, dövrün tələblərinə uyğun təkmilləşmələrin həyata keçirilməsi də ölkəmizdə seçki kampaniyalarının gedişinin təqdir olunmasında əhəmiyyətli rol oynayır.

Yeni Azərbaycan Partiyası dəyərli təşəbbüsləri ilə də cəmiyyət tərəfindən alqışlanır. Belə ki, partiya 2019-cu ilin sonlarında ölkədə geniş vüsət alan islahatlar prosesinin parlamentdə də öz əksini tapması üçün Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Bu təşəbbüs ölkə ictimaiyyəti tərəfindən böyük dəstək qazanaraq müəyyən prosedur qaydalarının həyata keçirilməsindən sonra dövlət başçısı İlham Əliyevin Sərəncamı əsasında 2020-ci il fevral ayının 9-da ölkəmizdə növbədənkənar parlament seçkiləri keçirildi.

YAP-ın belə təşəbbüsləri çoxsaylıdır. Partiya həmçinin Milli Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi üçün ümumxalq səsverməsinin keçirilməsi təşəbbüsünü də irəli sürərək xalqın dəstəyini qazanmışdır. Hər xoşniyyətli təşəbbüs böyük yenilik olmaqla yanaşı, inkişafa, tərəqqiyə doğru atılan mühüm addımlardandır. Yeni Azərbaycan Partiyası həqiqətən də dünənin, bugünün və gələcəyin partiyasıdır.

### Yeni Azərbaycan Partiyası yeni dövrün çağırışlarını necə cavablandırır?

Yeni Azərbaycan Partiyasının cəmiyyətdə nüfuzunun artmasında, nəinki ölkənin, hətta Cənubi Qafqaz regionunun aparıcı siyasi təşkilatına çevrilməsində partiyanın qəbul etdiyi qərarlar da əhəmiyyətli rol oynayır. Bu baxımdan qeyd edə bilərik ki, ötən 30 ildə YAP-ın qurultaylarında (1999, 2001, 2005, 2008, 2013, 2018 və 2021) qəbul edilən tarixi qərarlar ölkəmizin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsində mühüm rol oynadı. 1999-cu ildə keçirilmiş qurultaydan sonra Yeni Azərbaycan Partiyasının inkişafında mühüm bir səhifə açıldı. Partiyanın rəhbərliyində o dövrdə Azərbaycan gənclərinin lideri kimi cənab İlham Əliyevin təmsil olunması bu siyasi qurumun gələcək uğurlarına böyük stimul verdi. Məhz 1999-cu ildə keçirilən birinci qurultayda o zaman ARDNŞ-in birinci vitse-prezidenti olan cənab İlham Əliyev partiyanın rəhbər strukturuna seçildi. Bu, YAP-ın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Cənab İlham Əliyevin YAP rəhbərliyində təmsilçiliyindən sonra gənclərə öz potensial imkanlarını ortaya qoymaq üçün bütün şəraitlərin yaradılması çox qısa zamanda onların partiya sıralarına sürətli axınını təmin etdi. 2005-ci ildə keçirilən YAP-ın III qurultayında isə ölkə Prezidenti, YAP Sədrinin birinci müavini İlham Əliyevin partiyanın Sədri seçilməsi ilə Yeni Azərbaycan Partiyasının həyatında yeni dövr başladı. Bu mühüm məqamı da xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva partiyanın 2013-cü ildə keçirilmiş V qurultayında YAP Sədrinin müavini, 2021-ci il mart ayının 5-də keçirilən VII qurultayında isə YAP Sədrinin birinci müavini təyin olundu. Dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində görülən işlərin, atılan uğurlu addımların nəticələri yalnız Azərbaycanın deyil, eyni zamanda Yeni Azərbaycan Partiyasının həyatında da özünü aydın şəkildə göstərir. Yeni Azərbaycan Partiyası yeniliklərə, təkmilləşməyə açıq partiyadır.

Yeni Azərbaycan Partiyasının VII qurultayı tarixi Zəfərimizin yaratdığı yeni reallıqlar fonunda keçirildi. Azərbaycanın Vətən müharibəsində şanlı Qələbəsindən geniş bəhs edən dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev qarşıda dayanan vəzifələri açıqladı. Dövlət başçısının proqram xarakterli, müasir dövrün, 44 günlük İkinci Qarabağ müharibəsində Qələbimizin yaratdığı yeni reallıqları özündə əks etdirən nitqi bütün partiya üzvləri üçün yeni vəzifələr müəyyənləşdirdi. Əminliklə ifadə edildi ki, partiyanın 30 illik yubileyi yüksək səviyyədə qeyd ediləcək. Partiya yeniləşmiş formatda daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcək: "Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın. Mən buna şübhə etmirəm".

Partiyanın VII qurultayında yeni tərkib formalaşdı. Veteranlar Şurası yaradıldı. Gənclərin dinamizmi ilə yaşlı nəslin təcrübəsi arasında vəhdətin yaradılması qarşıya mühüm vəzifə kimi qoyuldu. Partiyanın yeni Nizamnaməsi qəbul olundu. Yeni Azərbaycan Partiyası İdarə Heyətinin Bakı şəhəri, eyni zamanda digər şəhər və rayonlar üzrə keçirilən iclasında şəhər və rayon təşkilatlarının yeni sədrləri ictimaiyyətə təqdim edildi.

Bu gün partiyanın hər bir şəhər və rayon təşkilatı işini YAP-ın yeni Nizamnaməsi əsasında quraraq qarşıda dayanan vəzifələrin icrasına öz töhfələrini verməyə çalışır. Yeni Azərbaycan Partiyasının Xətai rayon təşkilatının sədri kimi mən də üzərimə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışıram. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu, Prezident İlham Əliyevin rəhbərlik etdiyi partiyanın üzvü olmaq nə qədər böyük şərəfdirsə, onun rayon təşkilatına rəhbərlik etmək bir o qədər qürurlu və məsuliyyətlidir.

Yeni Azərbaycan Partiyasının VII qurultayından ötən bir ilə yaxın dövr həm ölkəmizin, həm də partiyamızın həyatında mühüm uğurlarla yadda qalıb. Yeni hədəflərə doğru inamla addımlayan Yeni Azərbaycan Partiyasının hər bir üzvü hazırkı dövrün ən mühüm hədəfi olan soydaşlarımızın Qarabağa və Şərqi Zəngəzura böyük Qayıdışının tezliklə reallığa çevrilməsinə öz dəstəyini göstərməyə hazırdır.

### "Biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik"

Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin VII qurultayda səsləndirdiyi bu çağırış partiyanın fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrildi. Elə ilk addım qurultayın gedişində atıldı. Belə ki, 6 siyasi partiya öz müraciətləri əsasında Yeni Azərbaycan Partiyasına qoşuldu.

Azərbaycanda hər zaman siyasi dialoq mühiti mövcuddur. Hakimiyyət siyasi partiyaların bir araya gəlməsi, dövlətimizin, xalqımızın gələcəyi naminə birlik nümayiş etdirməsi üçün zəruri olan bütün addımları atır. 44 günlük İkinci Qarabağ müharibəsi bu birliyin, həmrəyliyin təqdimatı oldu. Vətən müharibəsində 50-dən artıq siyasi partiya ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə dəstəklərini qəbul etdikləri birgə bəyanatla təsdiqlədilər.

Dövlət başçısının hər zaman vurğuladığı kimi, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var. Ölkə Prezidenti qurultayda partiya üzvlərinə çağırış etdi: "Yeni Azərbaycan Partiyasının nümayəndələrini də, üzvlərini də buna fikir verməyə çağırıram ki, bizim ölkə daxilində heç bir siyasi qurumla heç bir problemimiz yoxdur".

Reallıq budur ki, YAP ölkəmizdə milli həmrəyliyin yeni inkişaf mərhələsinin təcəssümünə çevrilir. Partiyanın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq. Bu əminliyə əsas verən 30 illik yol və bu yolun uğurlarına söykənərək müəyyənləşdirilən hədəflərdir.

***Vüqar RƏHİMZADƏ,***
***Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru***

## Beynəlxalq səyahətçilərin Qarabağ və Şərqi Zəngəzura səfəri

# Növbəti istiqamət Kəlbəcər rayonu və Laçın dəhlizi olub

Xocalı soyqırımının 30 illiyi ərəfəsində işğaldan azad edilmiş ərazilərə səfər edən xarici səyyahlar fevralın 17-də Kəlbəcər və Laçın rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, səfər zamanı qonaqlar Birinci Qarabağ müharibəsi zamanı Kəlbəcər tuneli qarşısında ermənilər tərəfindən qətlə yetirilən azərbaycanlıların xatirəsini yad ediblər.

Sonra xarici səyyahlar İstisuya səyahət ediblər. Qonaqlara İstisu haqqında məlumat verilib. Bildirilib ki, İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb.

Daha sonra qonaqlar Laçın dəhlizindən keçiblər. Onlar yolboyu ətrafda ermənilər tərəfindən dağıdılmış binalara və tikililərə baxıblar.

Qeyd edək ki, ermənilər tərəfindən 30 ildən artıq işğal altında saxlanılan digər ərazilərimizdə olduğu kimi, Laçın və Kəlbəcər rayonlarında da heç bir iş görülməyib. Ermənilər bu torpaqlarda yalnız dağıdıcı və talançı fəaliyyətlə məşğul olublar. Xarici ölkələrdən olan səyyahlar bütün bunları öz gözləri ilə görüblər.











### *Tailandlı səyyah:* "Qarabağda bir çox tikililər dağıdılıb"



"Qarabağ çox tarixi və gözəl məkandır. Lakin burada bir çox tikililər dağıdılıb". AZƏRTAC xəbər verir ki, bu fikirləri taylandlı səyyah Rungpatch Nethnapat deyib.

Azərbaycan və Ermənistanın gələcəkdə münasibətlərinin yaxşılaşacağına inandığını bildirən səyahətçi bildirib: "Ümid edirəm, hər iki ölkə gələcəkdə sülh şəraitində yaşayacaq və bölgəyə firavanlıq gələcək".

### *Qustav Rosted SORENSEN:* "Qarabağın təbiəti çox gözəldir"



"Qarabağın təbiəti çox gözəldir. Buranın mənzərəsinə heyran oldum". Bu fikirləri AZƏRTAC-a müsahibəsində danimarkalı səyyah Qustav Rosted Sorensen ifadə edib.

"Lakin burada bir çox abidələr dağıdılıb. Dağıdılmış tikililəri görmək təəssüf doğurur", - deyən səyahətçi gələcəkdə Ermənistan ilə Azərbaycan arasında yaxşı qonşuluq münasibətlərinin qurulacağına inandığını söyləyib.

### *Avstriyalı səyyah:* "Füsunkar təbiətə malik Kəlbəcərdə törədilən dağıntılar məndə böyük məyusluq yaratdı"



"Kəlbəcərin füsunkar təbiəti var. Lakin təəssüf ki, burada bir çox evlər dağıdılıb və yandırılıb". Bu sözləri AZƏRTAC-a müsahibəsində işğaldan azad edilmiş ərazilərimizə səfər edən avstriyalı səyyah Maksimilyan Layerer söyləyib.

O gördüyü dağıntıların böyük məyusluq yaratdığını deyib, regionda sülhün tezliklə bərqərar olmasını arzulayıb.

### *Albertus Antonius van EİJDEN:* "Laçın şəhərində bir çox tikili dağıdılıb"



"Laçın dəhlizindən keçərkən yol kənarlarında dağılmış bir çox tikili, bina gördüm. Şəhərdə, eyni zamanda, yollar da köhnədir". Bunu AZƏRTAC-a müsahibəsində Niderlanddan gəlmiş səyyah Albertus Antonius van Eijden bildirib.

İşğaldan azad edilmiş ərazilərimizdə bir çox tarixi abidə ilə tanış olduğunu deyən səyyah Qarabağın gözəl təbiətinə heyranlığını gizlətməyib. O, gələcəkdə Azərbaycan ilə Ermənistan, həmçinin iki xalq arasında mehriban münasibətlərin yaranacağına inamını ifadə edib.

### *Serbiyalı səyahətçi:* "Qarabağda dağıdılmış və yandırılmış tikililərin şahidi oldum"



"Qarabağda dağıdılmış və yandırılmış tikililərin şahidi oldum". Bunu AZƏRTAC-a açıqlamasında işğaldan azad edilmiş ərazilərdə səfərdə olan serbiyalı səyyah Dorde Radinoviç Kapraloviç deyib.

O bildirib ki, Qarabağa səfər zamanı dağıdılmış ərazilərlə yanaşı, Azərbaycan dövləti tərəfindən sürətlə həyata keçirilən bərpa-quruculuq işlərinə də şahidlik edib. "Görünən odur ki, Azərbaycan Qarabağda bir çox sahələrin dirçəlməsi üçün investisiyalar yatırır. Azərbaycan ilə Ermənistan arasında münaqişənin olduğunu bilirəm, lakin inanıram ki, münasibətlərin normallaşması regiona sülh gətirəcək".

## Qaradağlı faciəsi ilə bağlı Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq tədbirləri davam etdirilir

"Qaradağlı faciəsi ilə bağlı Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq tədbirləri davam etdirilir". Bunu Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov AZƏRTAC-a açıqlamasında deyib.

K.Zeynalov bildirib ki, Azərbaycan Respublikasının ərazilərində qanunsuz fəaliyyət göstərmiş erməni separatçı rejiminin silahlı hərbi birləşmələri və Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən yerli azərbaycanlı əhaliyə qarşı törədilmiş sülh və insanlıq əleyhinə, habelə müharibə və digər cinayətlərin araşdırılması məqsədilə istintaq-əməliyyat qrupu yaradılıb. Cinayət işi üzrə Qaradağlı epizodu ilə bağlı bugünədək sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətlərini törətmiş 12 şəxs Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə beynəlxalq axtarışa verilib. Hazırda Respublika Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq tədbirləri davam edir.

Qeyd edək ki, erməni silahlı birləşmələri Xocavənd rayonunun Qaradağlı kəndində yaşayan 200-dən artıq azərbaycanlı ailəsini məcburi hərəkətlərlə didərgin salmaq məqsədilə 1988-ci ilin fevralından başlayaraq 1992-ci il fevralın 14-dək müxtəlif vaxtlarda yaşayış yerlərinə və həyətyanı sahələrinə mütəmadi olaraq basqınlar edərək evlərini yandırıb qarət edib, nəticədə kəndin azərbaycanlı milliyyətindən olan 1008 nəfər əhalisindən 941-ni beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan doğma yerlərindən didərgin salıblar.

Erməni silahlı birləşmələrinin üzvləri 1992-ci il fevralın 14-17-də Xocavənd rayonunun Qaradağlı kənd sakinlərindən 9-u azyaşlı, 10-u qadın, 14-ü 60 yaşdan yuxarı, 34-ü kişi cinsindən olan cavanlar olmaqla 67 nəfəri öldürüb, 2 nəfərə həyat üçün təhlükəli olan sağlamlığa ağır zərərvurmaya aid xəsarətlər yetirib, 49 nəfəri girov götürüblər. Eyni zamanda, yaşayış binaları və dövlət obyektləri qarət edilərək yandırılıb.

## Amerikalı mer Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı bəyannamə imzalayıb

ABŞ-ın Florida ştatının Hallandeyl Biç şəhərinin meri Coy Kuper Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyannamə imzalayıb.




Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan icmasına ünvanlanmış bəyannamədə deyilir ki, 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təcavüz və etnik təmizləmə siyasəti nəticəsində erməni silahlı birləşmələri sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücum edib və dinc əhaliyə qarşı dəhşətli qətliam törədiblər. Nəticədə 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca erməni hərbçiləri tərəfindən qətlə yetirilib. Bəzi ekspertlər Xocalı faciəsini "Azərbaycan Srebrenitsası" adlandırırlar.

Diqqətə çatdırılıb ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün BMT Baş Assambleyası, Avropa Parlamenti, AŞ PA, ATƏT, ABŞ Dövlət Departamenti və Ağ ev tərəfindən dəstəkləndiyi xüsusi vurğulanıb.

Coy Kuper bəyannaməni Floridada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatının nümayəndələrinə təqdim edib.

## "Strichting TogetherStrong" Assosiasiyası niderlandlı parlamentarilərə Xocalı soyqırımı ilə bağlı müraciət göndərib

"Niderland Karllığında fəaliyyət göstərən "Strichting TogetherStrong" Assosiasiyası Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar bu ölkənin parlamentinin Xarici İşlər üzrə Komissiyasına burada yaşayan azərbaycanlılar adından müraciət göndərib".

STICHTING TOGETHERSTRONG

AZƏRTAC xəbər verir ki, bu haqda Niderland Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi və "Strichting TogetherStrong" Assosiasiyanın təsisçisi İlhana Qoca məlumat verib. O bildirib ki, əsas məqsəd niderlandlı parlamentarilərlə görüşmək və onlara Xocalı faciəsi haqqında ətraflı məlumat verməkdir. Parlamentariləri faciə ilə əlaqədar tam məlumatlandıraraq Xocalı soyqırımının Niderland parlamentində tanıdılmasına nail olmaq istəyirlər. Həmçinin assosiasiyanın təsisçisi İlhana Qoca tərəfindən niderland dilinə tərcümə edilmiş "Xocalı şahidləri danışır" kitabı yerli deputatlara çatdırılacaq.

Niderlandlı parlamentari Vera Bergkampa xüsusi müraciət göndərilib. Müraciətdə parlamentin qərəzli mövqeyinin Azərbaycan mənşəli niderlandlılar üçün ağır olduğu göstərilərək onların əksəriyyətinin Qarabağdan, Xocalıdan və Ermənistandan didərgin salındıqları qeyd edilib. Bildirilib ki, Niderland azərbaycanlıları icması üzvlərinin səsi eşidilməli və Xocalı soyqırımı parlamentdə müzakirəyə çıxarılmalı və tanınmalıdır.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi dövründə də "Strichting TogetherStrong" Assosiasiyası fəaliyyətini intensivləşdirərək yerli mediada ölkəmizlə bağlı reallıqların işıqlandırılmasına töhfə verib, Azərbaycan reallıqları, 30 ilə yaxın işğal altında olmuş torpaqların ermənilər tərəfindən büsbütün minalandığı, Qarabağda törədilən urbisidlərlə bağlı məlumatları yayıb.

## Türkiyəli rektor: "Xocalı soyqırımının dəhşətlərini unutmamalı, unutdurmamalıyıq"

"Xocalı soyqırımı dünya tarixində, insanlıq tarixində utanılacaq qara bir ləkədir. Bu hadisəni unutmamaq və unutdurmamaq üçün güclü olmalıyıq. Tarix göstərdi ki, türk xalqlarının zəifliyi onlar üçün tragediyalara səbəb olur. Xocalı soyqırımını unutmamalıyıq ki, bir daha belə acılar yaşanmasın".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Osmaniyə Korkut Ata Universitetinin rektoru professor Turqay Uzun ifadə edib.

Güclü olmağın real nümunəsinin Vətən müharibəsində ortaya çıxdığını diqqətə çatdıran rektor deyib ki, İkinci Qarabağ müharibəsinin nəticəsi Azərbaycan-Türkiyə qardaşlığının təntənəsidir.

Qeyd edək ki, Prezident İlham Əliyevin Xocalı soyqırımının otuzuncu ildönümü haqqında imzaladığı məlum sərəncama uyğun olaraq, "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində rektor Turqay Uzunun iştirakı ilə fevralın 16-da Osmaniyə Korkut Ata Universitetində "Xocalı soyqırımı otuzuncu ildönümündə və Türkiyə-Azərbaycan əlaqələri" mövzusunda konfrans keçirilib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## AÇG-nin şah damarı



### “Azəri” yatağından ilk neftin alınmasının 17 ili tamam olur

“Azəri-Çıraq-Günəşli”(AÇG) yataqları ölkəmizin əsas gəlir mənbələrindən biri olaraq qalır. Bu baxımdan “Azəri” xüsusi önəm daşıyır. Belə ki, bu, AÇG blokunun ən böyük yatağıdır.

“Azəri” həm qoynundakı sərvətlərə, həm də ərazisinə görə ümumiyyətlə, dünyadakı iri karbohidrogen mənbələrindən biri sayılır. Əslində, “Azəri”nin özü üç yatağın birləşməsindən yaranan bir blokdur. Onun mərkəzi, qərb və şərq hissələri var. Təsadüfi deyil ki, “Azəri”ni AÇG-nin şah damarı adlandırırlar.

2005-ci il fevralın 18-də “Mərkəzi Azəri” platformasından ilk neftin əldə olunması ilə “Azəri”dən hasilata start verildi. Bu münasibətlə platformada təntənəli tədbir keçirildi. “Bu gün “Azəri” yatağından ilk neftin çıxarılması bir daha onu göstərir ki, qarşıya qoyulmuş bütün vəzifələr, planlar həyata keçirilir. Bütün çətinliklərə, maneələrə baxmayaraq, çətin geosiyasi vəziyyətdə Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda uğurla işləyibdir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır”. Bu fikir tədbirdə bir daha vurğulandı.

“Azəri”nin işlənməsi “Əsrin müqaviləsi” adını almış “Azəri-Çıraq-Günəşli” layihəsinin mühüm bir mərhələsidir. Odur ki, bu yataqdan ilk neftin alınması “Əsrin müqaviləsi”nin kulminasiya nöqtəsi sayılır.

Bu, həmin yataqdır ki, 2005-ci ilin mayında ilk dəfə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərinə məhz oradan çıxarılan neft vurulub. Ona görə də fevralda “Azəri”dən ilk neftin alınması adi hadisə deyildi. İndi o tarixi gündən 17 il keçir.

“Azəri” yatağından çıxarılan nefti və səmt qazını Səngəçal terminalına çatdırmaq üçün dənizdə ümumi uzunluğu 600 kilometrdən çox olan sualtı borular çəkilib. Terminalda həmin karbohidrogenləri ilkin emal edib müvafiq kəmərlərə vurmaq üçün geniş infrastruktur yaradılıb.

“Azəri” nefti Səngəçala 30 düymlük sualtı borularla çatdırılır. Yataqda hasil olunan qazın bir hissəsi laylardakı təzyiqi saxlamaq üçün və yanacaq kimi platformalarda istifadə olunur. Qalan hissəsi 28 düymlük sualtı xətlərlə terminaldakı texnoloji emal qurğularına nəql edilir və buradan ölkənin daxili istifadəsi üçün “Azəriqaz” şəbəkəsinə ötürülür.

2021-ci ildə AÇG yataqlar blokundan SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin “Neft Daşları”ndakı qurğu vasitəsilə gündəlik orta hesabla 9 milyon kubmetr, ümumilikdə isə 3 milyard kubmetr səmt qazı verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Hasilat ahəngdar və təhlükəsiz davam edir. Operator olan bp şirkətinin məlumatına görə, keçən il gündə orta hesabla “Çıraq”dan 27 min, “Mərkəzi Azəri”dən 109 min, “Qərbi Azəri”dən 116 min, “Şərqi Azəri”dən 76 min, “Dərinsulu Günəşli”dən 86 min və “Qərbi Çıraq”dan 44 min barel neft hasil olunub. Beləliklə, AÇG-dən gündəlik orta hasilat 458 min barel təşkil edib. İl ərzində bu yataqlar bloku ümumilikdə təxminən 167 milyon barel, yəni 23 milyon ton neft verib.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) verdiyi məlumata görə, AÇG layihəsinin reallaşdırılması çərçivəsində 2021-ci ildə 5 milyard 968,4 milyon dollar gəlir əldə edilib. Bu ilin yanvar ayında əldə olunan gəlir isə 683 milyon 114 min dollar olub. Neft Fondunun indiyədək (2001-ci ildən etibarən) AÇG layihəsi üzrə gəliri 156 milyard 56 milyon dollar təşkil edib.

Keçən il sentyabrın 18-də, “Əsrin müqaviləsi”nin 27-ci ildönümü və Neftçilər Günü ərəfəsində AÇG mühüm bir qələbə qazandı. Bu yataqlar blokundan 4 milyardıncı barel neft hasil olundu. Beləliklə, AÇG-nin dünya səviyyəli karbohidrogen yataqları olduğu bir daha nümayiş etdirildi.

2017-ci ilin sentyabr ayında AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişinin əsrin ortasınadək uzadılması “Azəri” yatağının da ömrünə ömür caladı. Bu saziş göstərdi ki, AÇG blokundakı yataqların, o cümlədən “Azəri”nin də ehtiyatları hələ çoxdur. Beləliklə, AÇG-nin ən böyük yatağı olan “Azəri” “Yeni əsrin müqaviləsi”nin də şah damarıdır.

İndi AÇG doqquzuncu platformasının yolunu gözləyir. Bu qurğu “Azəri Mərkəzi Şərqi” ( ACE) adlanır və eyniadlı layihə çərçivəsində tikilir. Platformanın inşası Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda və Bibiheybətdəki tikinti-quraşdırma sahəsində davam etdirilir. Keçən ilin sonunda axırıncı iri avadanlıq yükləri Bakıya çatdırılıb və beləliklə də, layihə üçün lazım olan bütün avadanlıqların daşınması işləri başa çatıb.

İlin sonuna ACE layihəsi üzrə işlər ümumilikdə 65 faiz tamamlanıb. Hazırda layihənin icrası üzrə işlər ən yüksək həddədir və bu işlərə Bakı, Avropa və Birləşmiş Krallıqdan 5500 nəfər insan cəlb olunub. Onların əksəriyyəti Azərbaycan vətəndaşıdır.

Mühəndis-layihə, tədarük və istehsal-quraşdırma işlərinin qrafikə uyğun davam etməsi göstərir ki, ACE-dən hasilatı 2023-cü ildə əldə etmək mümkün olacaq. Başqa sözlə, “Azəri Mərkəzi Şərqi”nin ilkin nefti də “Çıraq”ın, “Dərinsulu Günəşli”nin və “Azəri”nin neftinə qovuşacaq.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## “Iveco Truck & Bus” şirkəti ilə əməkdaşlıq müzakirə olunub

İqtisadiyyat naziri Mikayıl Cabbarov “Iveco Truck & Bus” şirkətinin Qafqaz və Mərkəzi Asiya üzrə direktoru Roman Smirnovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



İqtisadiyyat naziri Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti, işğaldan azad edilmiş ərazilərimizin iqtisadi potensialı, zəngin təbii resursları barədə məlumat verib, biznes üçün geniş imkanları vurğulayıb.

“Iveco Truck & Bus” şirkətinin Qafqaz və Mərkəzi Asiya üzrə direktoru Roman Smirnov təmsil etdiyi şirkətin fəaliyyət istiqamətləri və investisiya planları barədə danışıb, şirkətin Azərbaycanda yaradılmış sənaye zonalarında, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə layihələrin həyata keçirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Tərəflər Sumqayıt Kimya Sənaye Parkında IVECO markalı avtobus və xüsusi təyinatlı avtomobillərin istehsalı, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında texniki xidmət mərkəzinin təşkili və yük avtomobillərinin yığımı layihələrinin reallaşdırılması məsələlərini müzakirə ediblər.

## Keçən ay külək-elektrik stansiyalarında 6,7 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib

Yanvar ayında Azərbaycandakı külək-elektrik stansiyalarında 6,7 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ay ölkədəki günəş-elektrik stansiyalarında isə 3,2 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

## DİN və onun Daxili Qoşunları üzrə hərbi qulluqçularına da “Müharibə veteranı” adı verilərək Prezident təqaüdü təyin edilib

Prezident İlham Əliyevin 29 dekabr 2021-ci il tarixli sərəncamının icrası işləri çərçivəsində Daxili İşlər Nazirliyi, o cümlədən nazirliyin Daxili Qoşunları tərəfindən də 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövr ərzində ölkəmizin ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş hərbi qulluqçularına “Müharibə veteranı” adı verilib.

Nazirlər Kabineti ilə razılaşdırılmış siyahı əsasında “Müharibə veteranı” adı verilmiş həmin şəxslərə dair məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Zəfər” altsisteminə daxil edilib.

Bundan sonra isə nazirlik tərəfindən onlara Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü (80 manat) təyin edilib.

Təqaüd təyinatı həmin şəxslərə müraciətləri olmadan, heç bir sənəd təqdim edilmədən, e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Təyinat 2022-ci il yanvarın 1-dən rəsmiləşdirilib və həmin vaxtdan hesablanaraq ödənilir.

Bununla da artıq 5 qurum (Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Ədliyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Daxili İşlər Nazirliyi) üzrə hərbi qulluqçulara “Müharibə veteranı” adı verilərək Prezident təqaüdü təyin olunub.

Hazırda digər qurumlar (Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və s.) üzrə də qeyd olunan adın verilməsi və təqaüd təyinatı üçün müvafiq işlər aparılır. Proses yaxın günlərdə yekunlaşacaq.

Müharibə veteranı kimi Prezidentin aylıq təqaüdü təyin edildiyi anda şəxsin adında olan telefon nömrəsinə bu barədə, habelə təqaüd kartını hansı bankdan əldə edəcəyinə dair SMS göndərilir.

## Azərbaycanda kənd yerlərinin inkişafı və milli aqroturizm sisteminin yaradılması mövzusunda seminar keçirilib

Bakıda “Kənd təsərrüfatına göstərilən dövlət yardımının səmərəliliyini və effektivliyini artırmaq üçün Kənd Təsərrüfatı Nazirliyinin potensialının artırılması” tvinninq layihəsi çərçivəsində “Azərbaycanda kənd yerlərinin inkişafı və milli aqroturizm sisteminin yaradılması” mövzusunda seminar keçirilib.

Seminarın məqsədi ölkədə aqroturizmin inkişaf potensialı, bu istiqamətdə gələcəkdə icrası nəzərdə tutulan işlər barədə birgə fikir mübadiləsi aparmaqdır.

Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, kənd turizmi Azərbaycanda qeyri-neft sektorunun inkişafı baxımından böyük potensiala malik olan sahələrdən sayılır. Nazir qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qeyri-neft sektorunun inkişafı istiqamətində ciddi islahatlar həyata keçirilir. Bu islahatlar nəticəsində aqrar sahə dinamik inkişaf edir.

Kənd təsərrüfatının inkişafı təkcə elm, təhsil, məşğulluq, innovasiya, ticarət sahələrinin deyil, turizmin də inkişafına təkan verir. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bir neçə ildir həyata keçirilən “Şəhərdən kəndə” aqroturizm layihəsi çərçivəsində bölgələrdə onlarca aqroekoturizm obyektinin yaradılmasına dəstək verilib. Hazırda Qax, Şəki, İsmayıllı, Balakən, Lənkəran və digər rayonlarda müasir tələblərə cavab verən aqroturizm obyektləri fəaliyyət göstərir. Qeyd olunub ki, aqroturizmin daha da inkişaf etdirilməsi regionlarda məşğulluq səviyyəsinin artmasına, təsərrüfat sahiblərinin gəlirlərinin çoxalmasına müsbət təsir göstərəcək.

Aqroturizm həm də fermerlər üçün əsaslı investisiya tələb etməyən, onlar üçün yeni gəlir mənbəyi formalaşdırmağa imkan verən sahədir. Bu səbəbdən Azərbaycanda fəaliyyət göstərən nümunəvi fermer təsərrüfatları həm də turizm təklifləri etməklə aqroturizmin daha da canlanmasına öz töhfələrini verirlər.

Tədbirdə çıxış edən Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko kənd təsərrüfatını Azərbaycan iqtisadiyyatının inkişafının əsas sahələrindən biri adlandırıb. O, Avropa İttifaqının Azərbaycanda aqroturizmin inkişafına davamlı dəstək göstərəcəyini vurğulayıb. Peter Mixalko turizmin bu sahəsinin inkişafının təsərrüfatların gəlirlərinin şaxələndirilməsinə, aqroturizm xidmətlərinin təkmilləşdirilməsinə gətirib çıxaracağına əmin olduğunu deyib.

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov isə bildirib ki, ölkəmizdə aqroturizm geniş potensiala malikdir. Qarabağa böyük Qayıdış, “ağıllı kənd” layihələri və “ağıllı kənd təsərrüfatı” konsepsiyasının reallaşdırılması yaxın gələcəkdə bu sektorun inkişafına əlavə təkan verəcək. Turizm sektoru postpandemiya dövründə iqtisadi artımın sürətləndirilməsi baxımından iqtisadi siyasətin prioritet sahələrindən biri kimi müəyyən edilib. KOBİA turizm sahəsində mikro, kiçik və orta sahibkarlığın inkişafı, onların potensialının artırılması istiqamətində tədbirlər görür.

Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov vurğulayıb ki, ölkəmizdə turizmin inkişafı üçün böyük işlər görülür. O, kənd yerləri və aqroturizmin inkişafının hazırda prioritet istiqamətlərdən biri olduğunu qeyd edib.

Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Seymur Mövlayev bildirib ki, aqroturizmin inkişaf etdirilməsi üçün bu sahədə dünya təcrübəsinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Dünyada fərqli aqroturizm modelləri mövcuddur. Seminar çərçivəsində təşkil olunacaq panellərdə beynəlxalq ekspertlər iştirakçılara Avropa İttifaqında tətbiq olunan aqroturizm modelləri barədə ətraflı məlumat verəcəklər.

## Məqsəd müasir texnika və texnologiyanın köməyilə yüksək məhsuldarlığa nail olmaqdır



Adətən söhbət dünyada aqrar sektorun inkişafından düşəndə “Niderland (Hollandiya) möcüzəsi” termini işlədilir. Əslində burada bir möcüzə də yoxdur. Sadəcə olaraq bu inkişafın arxasında uzunmüddətli və məqsədyönlü siyasət dayanır.

Ərazisi Azərbaycanın yarısı qədər olan bu ölkə dünyada Amerikadan sonra ən çox kənd təsərrüfatı məhsulları ixrac edir. Niderland il ərzində dünya bazarına 100 milyard dollarlıqdan çox məhsul çıxarır. Avropanın inkişaf etmiş ölkələri olan Fransa, Almaniya, İtaliya və İspaniyada fermerlər hollandiyalı həmkarları ilə rəqabət apara bilmirlər. Bu üzdən dövlətlərindən Niderland məhsullarına müxtəlif qadağalar tətbiq olunmasını tələb edirlər. Avropa Birliyinin qəbul etdiyi qanunlara görə isə bu, mümkün deyil. Əvəzində həmin ölkələr öz fermerlərinə dövlət dəstəyini artırmaq məcburiyyətində qalırlar.

Bəs Niderland aqrar sektorda bu inkişaf səviyyəsinə necə çıxa bilmişdir? Qəribə də olsa, ərazisi və təbii iqlimi kənd təsərrüfatı üçün çox da əlverişli olmayan ölkə inkişaf yolu kimi məhz aqrar sektoru seçdi. Dövlət bu sahədə çalışan sahibkarlara böyük güzəştlər tətbiq etməklə yanaşı, onlara maddi dəstək də verdi. Özü də bu dəstək mütəmadi xarakter aldı. Yəni bu ölkənin fermerləri digər Avropa ölkələrində olduğundan daha çox və fasiləsiz dövlət dəstəyindən istifadə edə bildilər.

İkincisi isə, Niderlandın kənd təsərrüfatında qabaqcıl texnika və texnologiyaların istifadəsinə üstünlük verildi. Bunlardan səmərəli istifadə edən fermerlər daha çox məhsul yetişdirdi. Üstəlik, məhsul yığımında istifadə etdikləri qabaqcıl texnika sayəsində məhsul itkisini demək olar ki, aradan qaldırdılar.

Yeri gəlmişkən qeyd edək ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda fermerlərin ən çox əziyyət çəkdiyi məsələ əllərində yararlı texnikanın olmaması idi. Hələ yeni texnologiyaları demirik. Sovetlər dönəmindən qalma köhnə texnika kəndliyə yüksək məhsul əldə etməyə və gəlir götürməyə imkan vermirdi. Bu səbəbdən yerli fermerlər torpaq sahələrini əkib-becərə bilmirdi. Kəndlinin əlində vəsait də yox idi ki, bahalı texnikanı alsın.

Dövlət bu məqsədlə “Aqroservis” Açıq Səhmdar Cəmiyyətini yaratdı. Məqsəd ilk növbədə fermerə güzəştli şərtlərlə torpaqların əkilib-becərilməsində dəstək vermək idi. Bu imkandan istifadə edən fermerlər tədricən öz təsərrüfatlarını inkişaf etdirməyə başladılar. Bir çox bacarıqlı kiçik fermer dövlətin dəstəyi ilə öz təsərrüfatını orta və iri təsərrüfatlara çevirə bildi.

İkinci mərhələdə bir çox fermer güzəştli şərtlərlə kənd təsərrüfatı texnikasının satışından faydalanmağa başladı. Bu gün ölkəmizdə fermerlərin müxtəlif adda minlərlə fərdi kənd təsərrüfatı texnikası və avadanlığı var.

Azərbaycanda minlərlə hektar buğda və arpa sahəsi dağlıq və dağətəyi ərazilərdə əkilir. Köhnə kombaynlarla bu sahələri biçmək təhlükəli olmaqla yanaşı, həm də biçin zamanı çoxlu itki yaradırdı. Problemi aradan qaldırmaq üçün xaricdən 20 “New Holland TC 5.90 HİLLSIDE” dağ kombaynları alındı. Bu yeni nəsil kombaynları əsas xüsusiyyətlərindən biri məhsulu itkisiz yığmasıdır. Dağ kombaynları həmçinin 20 dərəcəli nəmlikdə biçin apara bilir. Bu da vaxt itkisini aradan qaldırır. Onların daha bir üstünlüyü biçilməsi çətin olan torpaq sahələrinin əkinə cəlb edilməsinə imkan verməsidir. Bu da texnikanın istifadəsi sayəsində dağlıq və dağətəyi zonalarda taxılçılıq təsərrüfatlarının daha da inkişaf etdirilməsinə imkan yaradacaq. Nəticədə buğda idxalı bir qədər azalacaq və ərzaq təhlükəsizliyinə töhfə veriləcək.

Xarici texnikaların alınıb ölkəmizə gətirilməsi həm də onlardan istifadə etməyi bacaran yeni kadrların hazırlanması tələbini qarşıya qoyur. Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyi müxtəlif tədbirlər həyata keçirir. Məqsəd fermerlərə innovativ kənd təsərrüfatı texnikalarının üstünlüyünü nümayiş etdirmək və onlardan istifadə qaydalarını öyrətməkdir. Elə Hacıqabul rayonunda keçirilən növbəti tədbirə də kənd təsərrüfatı texnikalarının təchizatçıları, həmçinin taxıl, pambıq, tütün, çəltik və digər kənd təsərrüfatı məhsulları yetişdirən fermerlər dəvət olunmuşdu.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən aqrar islahatların bir məqsədi də kənd təsərrüfatında müasir texnika və texnologiyaların tətbiqi ilə yüksək məhsuldarlığa nail olmaqdır. Çünki aqrar sektorun inkişafı innovativ texnologiyaların inkişafından keçir. Bu məqsədlə dövlət kənd təsərrüfatında yüksək keyfiyyətli müasir texnikadan istifadə etmək üçün onu fermerlərə güzəştli qiymətlərlə satır. İnnovativ texnikalardan geniş istifadə məhsuldarlığı dəfələrlə artırır, torpaq və su resurslarından səmərəli istifadəyə imkan yaradır ki, bu da fermerlərin daha çox gəlir götürməsini təmin edir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## Listinqlə bağlı yeniliklər mövzusunda təlim keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı, Sahibkarlığın İnkişafı Fondu və Bakı Fond Birjası tərəfindən yerli sahibkarlar üçün “Listinqlə bağlı yeniliklər və Bakı Fond Birjasında Listinq” mövzularında onlayn təlim keçirilmişdir.

Təlimdə Azərbaycan Respublikasının Mərkəzi Bankı, Bakı Fond Birjası, AzFinance İnvestisiya şirkəti və Sahibkarlığın İnkişafı Fondunun əməkdaşları tərəfindən kapital bazarı ilə bağlı ümumi məlumat, qiymətli kağızların buraxılışı, onların birjada listinqə alınması proseduru və Listinq Məsləhət Proqramı ilə bağlı ətraflı məlumat verilmişdir.

Tədbirin əsas məqsədi yerli şirkətlərə alternativ maliyyələşmə üsullarını təqdim etmək və bu istiqamətdə beynəlxalq təcrübəni bölüşməkdir.

## AİBNDX-yə məlumatların təqdim olunmaması ilə əlaqədar iş qaldırılıb

2021-ci ildə dünyada baş verən qlobal qiymət artımı fonunda ölkəmizdə də bir sıra ərzaq məhsullarının qiymətində dəyişiklik müşahidə edilir.

Qiymət manipulyasiyalarının qarşısının alınması üçün İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bazarda antiinhisar qanunvericiliyinin tələblərinə əməl olunmasına nəzarət məqsədilə araşdırmalara başlayıb. Dövlət Xidməti tərəfindən yerli idxalçı müəssisələrə zəruri sənəd və məlumatların təqdim olunmasına dair sorğular göndərilib.

Sorğulara əksər təsərrüfat subyektləri tərəfindən vaxtında cavab verilməsinə baxmayaraq, “Veysəloğlu” MMC tərəfindən Dövlət Xidmətinə heç bir sənəd və məlumat təqdim edilməyib. Bununla əlaqədar, Dövlət Xidməti “Veysəloğlu” MMC barəsində antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə iş qaldırıb. İşə baxılması nəticəsindən asılı olaraq, təsərrüfat subyekti barəsində qanunamüvafiq tədbir görüləcəkdir.

# Tibb elminin qürur duyduğu alim

Milli dövlətçilik təəssübkeşliyi ilə həyatda silinməz izlər qoymuş hər kəs - istər alim olsun, istər hərbçi, istər həkim, istərsə də adi insan olsun tarixin və insanların yaddaşında daim yaşayır, nəsildən-nəslə ötürülərək xatirələrdə əbədiləşir, qəzet-jurnal məqalələrində, tədqiqatçıların araşdırmalarında tarixiləşir. Belə unudulmaz ziyalı-alimlərimizdən biri də Azərbaycan və Rusiya ictimaiyyətində, xüsusilə hər iki ölkənin səhiyyə sistemində kifayət qədər yaxşı tanınmış, Azərbaycan Tibb Universitetinin və Rusiya Xalqlar Dostluğu Universitetinin professoru olmuş, 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə isə həqiqi üzvü seçilmiş akademik Fazil Səməd oğlu Qurbanovdur.



Fazil müəllim 50 ilə yaxın səhiyyə sistemində elm və təhsil müəssisələrində çalışmış və pedaqoq kimi yüksəksəviyyəli tibbi kadrların hazırlanmasında müstəsna xidmətlər göstərmişdir. Fazil müəllim yaradıcı həyatını həsr etdiyi tibbin bu və digər sahəsi ilə məşğul olmaqla həm də boyabaşa çatdığı ölkənin və xalqının daim tale qayğıları ilə yaşamış, respublikamızın uğurlu imici naminə ictimai-siyasi arenada əlindən gələni əsirgəməmişdir.

Elmi, pedaqoji və ictimai fəaliyyəti ilə qürur duyduğumuz Fazil Qurbanov 18 fevral 1944-cü ildə Bakıda anadan olub. Bu gün 78-ci doğum gününü onsuz qeyd etdiyimiz milli ruhlu, intellekt ziyalı-alim Fazil Qurbanov cismən aramızda olmasa da, ruhən bizimlədir. Tələbəlik illərindən yaxşı tanıdığım Fazil Qurbanov 1973-cü ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki ATU) Müalicə profilaktika fakültəsini uğurla bitirdikdən sonra gənc mütəxəssis kimi Respublika Uroloji Xəstəxanasında cərrahiyyə üzrə internatura keçmişdir. İki ildən sonra fəaliyyətini Azərbaycan EA-nın Fiziologiya İnstitutunda SSRİ TEA-nın akademiki M.A.Topçubaşovun rəhbərlik etdiyi cərrahi qrupun elmi əməkdaşı kimi davam etdirmişdir. 5 il sonra, 1980-ci ildə Fazil Qurbanov SSRİ TEA-nın (indi RTEA) Ümumittifaq Elmi Cərrahiyyə Mərkəzində akademik B.V.Petrovski adına Rusiya Elmi Cərrahiyyə Mərkəzinin nəzdində aspiranturaya daxil olmuşdur. 1983-cü ildə "Cərrahi müalicədən sonra kardiospazmin residivi zamanı pnevmatik kardiodilatasiya" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

Fazil Qurbanov 1987-ci ildə RTEA-nın müxbir üzvü, professor A.F.Çernousovun elmi məsləhətçiliyi ilə "Qida borusunun xərçəngi və xoşxassəli strikturalarında birmomentli ezofaqoplastika" mövzusunda doktorluq işini uğurla müdafiə edərək tibb elmləri doktoru adına layiq görülmüşdür.

Elmi uğurları ilə sevindiyimiz Fazil müəllim 1989-cu ildə Azərbaycan Elmi-Tədqiqat Qastroenterologiya İnstitutunda Qida borusu, mədə və onikibarmaq bağırsaq cərrahiyyəsi bölməsinin rəhbəri kimi fəaliyyətə başlayıb və Azərbaycan Tibb İnstitutunun Cərrahiyyə kafedrasının professoru olub. Elə həmin ildən fəaliyyətini Moskvada davam etdirən həmkarımız Rusiya Federasiyası Yollar Nazirliyinin N.A.Semaşko adına Mərkəzi Kliniki Xəstəxanasında Cərrahiyyə şöbəsinə rəhbərlik edib, eyni zamanda Rusiya Xalqlar Dostluğu Universitetinin Hospital cərrahiyyəsi kafedrasının professoru olub.

Fazil Qurbanov MDB və bir çox xarici ölkədə yüksəkixtisaslı alimcərrah və üç dildə (Azərbaycan, rus, ingilis) dərs deyən pedaqoq kimi məşhur idi. Onun cərrahlıq təcrübəsi çoxsahəli olsa da, fəaliyyətinin əsas istiqamətini qida borusu, mədə, həzm orqanlarının operativ və konservativ müalicəsi zamanı ən müasir tibbi texnologiyaların tətbiqi hesab olunur. Ömrünün ən dəyərli vaxtlarını kitabxanalarda, arxivlərdə keçirməklə tibbə elmi yeniliklər gətirmiş, insan sağlamlığı üçün vacib olan ən mühüm mövzuları tədqiqata cəlb etmiş akademikin respublikamızda və xaricdə 230-dan çox elmi əsəri işıq üzü görüb. O, 5 monoqrafiya, 13 ixtira və 7 səmərələşdirici təklifin, əlavə olaraq ali məktəb tələbələri üçün dərslik və dərs vəsaitlərinin, çoxsaylı tibbi təlim təlimatlarının müəllifidir. Gənclərin inkişafına, onların daha bilikli və savadlı olmasına qayğısını əsirgəməyən professor F.Qurbanovun rəhbərliyi altında respublikamız və xarici ölkələr üçün onlarla yüksəkixtisaslı kadr, o cümlədən 14 tibb elmləri namizədi, 7 elmlər doktoru və 14 fəlsəfə doktoru hazırlanıb.

Fazil Qurbanov Beynəlxalq Cərrahlar Birliyi (ABŞ), Rusiya Cərrahlar Assosiasiyası, Rusiya Endoskopik Cərrahiyyə Assosiasiyası, Rusiya Hernioloqlar Assosiasiyasının üzvü olmaqla yanaşı, Azərbaycan Səhiyyə Nazirliyinin "Səhiyyə" jurnalının redaksiya heyətinin üzvü, Rusiyanın və Moskva şəhərinin bəzi səhiyyə və tibbi komitə komissiyalarının, Rusiya Xalqlar Dostluğu Universiteti Elmi Şurasının üzvü idi. Elmi, həkimlik, pedaqoji və ictimai fəaliyyəti ilə əlaqədar Rusiya Fedarasiyasının və Azərbaycan Respublikasının Fəxri fərman və təşəkkürlərinə layiq görülmüşdü. F.Qurbanov 2014-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2017-ci ildə isə həqiqi üzvü seçilmişdi.

İşgörmə qabiliyyəti, məqsədyönlülüyü, elmi araşdırmalarının müxtəlifliyi və geniş erudisiyası akademikin əsas fərqləndirici xüsusiyyətlərindən idi. Çalışdığı müəssisənin əməkdaşlarına və tabeliyində olan işçilərə qarşı səmimiliyi və diqqətcilliyi ona böyük hörmət və ehtiram qazandırmışdı. Tələbələrinin bir çoxu MDB ölkələrində, habelə müxtəlif xarici ölkələrdə nüfuzlu tibb müəssisələrində yüksəkixtisaslı cərrah kimi fəaliyyət göstərir.

Əzmkarlığı və yazıb-yaratmaq şövqü ilə tibb elminin çətin yollarında pillə-pillə ucalan Fazil müəllim Moskva mühitində olduğu kimi, ölkəmizdə, eləcə də Rusiyanın bir çox bölgəsində yaxşı tanınırdı. Heydər Əliyev Fondunun keçirdiyi bütün tədbirlərdə, habelə "Xocalıya ədalət!" kampaniyalarında fəal mövqe nümayiş etdirirdi. Onu yaxından tanıyanlar yaxşı bilirlər ki, Fazil müəllim Moskvada yaşayıb işlədiyi illərdə ona müəyyən problemlərlə bağlı onlarla azərbaycanlı müraciət edirdi. Bu müraciətlərin bir çoxu Fazil Qurbanovun çalışdığı sahəyə aid olmasa da, o işin həlli üçün döymədiyi qapı qalmazdı. İstərdi ki, Rusiyada yaşayan soydaşlarımızdan hər kəsin çətinliyə yuvarlanmış işini qanunun tələbləri çərçivəsində yoluna qoysun. Görkəmli akademik F.Qurbanov 2016-cı ildə Ümumrusiya Azərbaycan Konqresinə sədr seçiləndən sonra bu missiyanı daha yüksək səviyyədə davam etdirirdi.

Fazil müəllim Moskvada yaşayıb işləyərkən elmi-pedaqoji fəaliyyətimlə bağlı onunla dəfələrlə görüşmüş, uzaq və yaxın xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə, simpozium və konfranslarda yol yoldaşı olmuşam. Fazil müəllimlə hər görüşümdə o, Azərbaycanda səhiyyənin vəziyyəti ilə maraqlanar, söhbətinin sonunda həmişə təbii olaraq, o zaman ölkəmizin ermənilər tərəfindən işğal altında olan ərazilərində dağıdılan, məhv edilən xəstəxana və poliklinikaların, təbii müalicə yerlərinin yoxluğundan təəssüf hissi keçirərdi. Məmnunluq doğuran odur ki, Fazil müəllim illərlə arzusunda olduğu Zəfər Qələbəsinin şahidi oldu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan torpaqlarının erməni işğalından azad edildiyi günü gördü. Bu tarixi Qələbədən ayyarım sonra, 2020-ci il dekabrın 23-də haqq dünyasına qovuşan akademik Fazil Qurbanov II Fəxri xiyabanda dəfn edildi.

Fazil Qurbanov həm də gözəl ailə başçısı idi. Ailəsində üç qız övladı böyüyüb. Üçü də ali təhsilli, tanınmış mütəxəssisdir. İki qızı Cəmilə və Nigar Qurbanovalar atalarının yolunu davam etdirirlər. Cəmilə xanım ATU-nu fərqlənmə diplomu ilə bitirib, tibb elmləri doktoru, professordur. 2018-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə ictimai və tibbi fəaliyyətindəki uğurlarına görə "Tərəqqi" medalına layiq görülüb. Hazırda Azərbaycanda ən böyük tibb müəssisələrindən olan Respublika Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutuna rəhbərlik edir. Bacısı Nigar Qurbanova isə ixtisasca göz həkimi, tibb elmləri doktoru, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Oftalmologiya kafedrasının professorudur. Ailənin sonbeşiyi, bacıların üçüncüsü Enarə xanım hüquqşünasdır.

Dəyərli ziyalı-alim Fazil Qurbanovun ölkəmizdə yüksəksəviyyəli tibbi kadrların hazırlanmasında böyük xidmətləri olub, respublikamızın milli mənafelərinin qorunub müdafiə edilməsində əlindən gələni əsirgəməyib. Azərbaycan səhiyyəsinin qürur duyduğu görkəmli ziyalı-alim Fazil Qurbanovun adı istər Rusiyada, istərsə də ölkəmizdə elmi arenada, habelə çoxminli tibb işçisi və sadə insanlar arasında ehtiramla anılır, xatirəsi əziz tutulur.

***Vaqif ŞADLİNSKİ,***
***Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Rusiya Tibb Elmləri Akademiyasının akademiki***

# Masallının polis işçiləri Milli Qəhrəman Səfəralı Məmmədovun xatirəsini yad ediblər

Masallı Rayon Polis Şöbəsinin əməkdaşları Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə mərdlik və igidlik göstərərək şəhidlik zirvəsinə ucalmış polis əməkdaşı, Azərbaycanın Milli Qəhrəmanı Səfəralı Məmmədovun xatirəsini ehtiramla yad ediblər.



AZƏRTAC xəbər verir ki, polis işçiləri Milli Qəhrəman Səfəralı Məmmədovun büstü önünə gül dəstələri düzüb, ruhuna dualar oxuyublar.

Polis əməkdaşlarının, şəhidin döyüşçü yoldaşlarının və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi anım tədbirində çıxış edənlər daxili işlər orqanlarında xidmət etmiş Səfəralı Məmmədovun həyat və döyüş yolunun hər bir gənc polis əməkdaşı, eləcə də Azərbaycan gənci üçün örnək olduğunu bildiriblər.

Qeyd edək ki, şəhid Səfərəli Məmmədov Ağdam Rayon Daxili İşlər Şöbəsində postpatrul batalyonunda tağım komandiri vəzifəsində xidmət edib. O, 1992-ci il fevralın 16-da Xocavənd rayonunun Qaradağlı kənd sakinlərini azğınlaşmış erməni dəstələrindən xilas edən zaman şəhid olub.

Səfəralı Qurban oğlu Məmmədov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Masallı şəhərində küçələrdən birinə, igid döyüşçünün təhsil aldığı məktəbə onun adı verilib, oxuduğu məktəbin həyətində büstü qoyulub, cəsur döyüşçüyə həsr olunmuş "Qəhrəman polis" adlı sənədli film çəkilib.

# Qəbələdə Vətən müharibəsi qazilərinə medallar təqdim olunub

Vətən müharibəsində göstərdikləri igidliyə, vəzifə borcunu və döyüş tapşırığını uğurla yerinə yetirdiklərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edilmiş Qəbələ rayonundan olan qazilərə medallar təqdim edilib.









Bu barədə AZƏRTAC-a Qəbələ Rayon İcra Hakimiyyətindən məlumat verilib.

Medalların təqdim edilməsi ilə əlaqədar Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsində keçirilən mərasimdə 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı tarixi Qələbədən söz açılıb, şanlı Zəfərlə başa çatan müharibədə Vətənimizin igid oğullarının göstərdikləri şücaətdən, qəhrəmanlıqlardan danışılıb.

Vətən müharibəsi qaziləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# Ölkəmizdə əlil arabasında reqbi idman növünün inkişafı diqqət mərkəzindədir



Fevralın 17-də Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) və Azərbaycan Reqbi Federasiyasının (ARF) rəhbərlikləri arasında görüş olub.

AMPK-dan AZƏRTAC-a bildiriblər ki, görüşdə komitənin prezidenti İlqar Rəhimov, baş katib Kamal Məmmədov, ARF-nin prezidenti Elşən Abbasov, birinci vitse-prezident Elvar Osmanov, vitse-prezident Müşfiq Cəfərov, baş katib Samirə Allahverdiyeva və digərləri iştirak ediblər.

Qonaqları salamlayan AMPK-nın prezidenti İ.Rəhimov ölkəmizdə paralimpiya hərəkatının inkişafı, əldə olunan nailiyyətlər, idmançılarımızın "Tokio-2020" Yay Paralimpiya Oyunlarında uğurlu çıxışı barədə məlumat verib.

İ.Rəhimov qeyd edib ki, ölkəmizdə paralimpiya tarixində ilk dəfə Azərbaycan Qış Paralimpiya Oyunlarında təmsil olunacaq. Bu, Azərbaycanda idmana göstərilən dövlət qayğısının bariz nümunəsidir. Qarşıda bizi daha ciddi sınaqlar gözləyir. İnanıram ki, Tokioda əldə olunan uğuru paralimpiyaçılarımız "Paris-2024" Yay Paralimpiya Oyunlarında da davam etdirəcəklər.

ARF-nin prezidenti E.Abbasov idmanın bu növünün ölkəmizdə inkişaf etdirilməsi, kütləviləşməsi və təbliği istiqamətində görülən işlər barədə məlumat verib. Dövlət başçısı İlham Əliyevin yürütdüyü uğurlu idman siyasətindən danışan federasiya rəsmisi qeyd edib ki, reqbi dünyada nüfuzlu idman növlərindən biri hesab olunur. Ölkəmizdə idmanın bu növünün inkişaf etdirilməsini qarşıya məqsəd qoymuşuq. Paytaxtda və regionlarda reqbi klubları fəaliyyət göstərir. Reqbinin kütləviləşməsi istiqamətində Bakıda və regionlarda mütəmadi görüşlər təşkil olunur, mütəxəssislər üçün təlimlər keçirilir. Əsas hədəf iri miqyaslı turnirlərdə iştirak etmək və mükafatçılar sırasında yer almaqdır.

Görüşdə ölkəmizdə əlil arabasında reqbi idmanının inkişaf perspektivləri müzakirə olunub.

Sonda hər iki qurum arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# "Yüksəliş" müsabiqəsinin qeydiyyatı və keçirilməsi qaydaları açıqlanıb

Fevralın 17-də ikinci "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsinin başlanması ilə bağlı mətbuat konfransı təşkil olunub.



AZƏRTAC xəbər verir ki, mətbuat konfransında "Yüksəliş" müsabiqəsinin İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev müsabiqənin qeydiyyat qaydaları, keçirilməsi haqqında danışıb. Qeyd edib ki, 21-51 yaş arasında olan, ali təhsilli, ən azı 2 il idarəçilik təcrübəsinə malik Azərbaycan Respublikasının vətəndaşları qeydiyyatdan keçərək müsabiqədə iştirak edə bilərlər. Müsabiqəyə "yukselish.az" saytı vasitəsilə həyata keçirilən qeydiyyat martın 31-i saat 18:00-dək aparılacaq. Müsabiqə qeydiyyat, onlayn, əyani, yarımfinal və finaldan ibarət olmaqla 5 mərhələdən ibarətdir.

Fərhad Hacıyev diqqətə çatdırıb ki, bu il üçün test imtahanlarında bəzi yeniliklər olacaq. Test imtahanlarında namizədlərin informasiya texnologiyaları sahəsində bilikləri yoxlanılacaq. Sualların məzmununda da dəyişiklik ediləcək. Əvvəl təkcə ölkəyə aid suallar verilirdisə, bu il dünyada baş verən hadisələrlə bağlı suallar da olacaq. Müsabiqənin əyani və qabiliyyət imtahanı mərhələsində beynəlxalq təcrübə nəzərə alınacaq.

İşçi Qrupun rəhbəri bildirib ki, builki müsabiqə üçün 10 mindən artıq müraciətin olacağı nəzərdə tutulub. Müsabiqənin avqust ayında bitməsi planlaşdırılır. "Yüksəliş" müsabiqəsi ilə bağlı sınaq imtahanları da təşkil olunacaq. Sınaq imtahanları bütün mərhələləri əhatə edəcək. Hər mərhələdən öncə təşkil olunan sınaq imtahanı istər vaxt baxımından, istərsə də sualların tərtibi baxımından real imtahanlardan fərqlənməyəcək.

Fərhad Hacıyev vurğulayıb ki, "Yüksəliş" müsabiqəsinin keçənilki ekspert və qalibləri builki müsabiqəyə qoşula bilməzlər.

Müsabiqənin yekunlarına əsasən, "Yüksəliş" qalibi elan olunan 20 iştirakçı idarəçi rəhbərlərin iştirakı ilə birillik mentorluq proqramına qoşulmaq və fərdi inkişaf üçün 20 min manat pul mükafatı qazanmaq imkanı əldə edəcək.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Şəmkirdə Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb





Şəmkir rayonunda Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar təşkil olunan silsilə tədbirlər çərçivəsində rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə futbol turniri keçirilmişdir.

Turnirin açılış mərasimində Azərbaycanın Dövlət Himni səsləndirilmiş, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxış edərək təkcə Azərbaycan deyil, eləcə də bəşər tarixinin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı haqqında geniş məlumat vermişdir. Diqqətə çatdırmışdır ki, Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması ancaq Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra mümkün olmuşdur: "Ölkəmiz informasiya blokadasından çıxaraq Azərbaycan həqiqətlərini, o cümlədən Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmışdır. Bu gün isə bu faciənin əsl soyqırımı kimi tanıdılmasında Heydər Əliyev Fondu hərtərəfli fəaliyyət göstərir".

Açılış mərasimindən sonra yarışlara start verilmişdir. Turnirdə Uşaq Gənclər İdman Məktəbinin 12 komandası iki qrupda mübarizə aparmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Hərbi Hava Qüvvələrində təlimlər keçirilib

Döyüş hazırlığı planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) təlim uçuşları keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ssenariyə əsasən, "MiQ-29" tipli təyyarələrlə kiçik və orta hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra edilib.

Təlimlər zamanı pilotlar tərəfindən şərti düşmənin hava hücumundan müdafiə vasitələrindən yayınmaqla onun yerüstü hədəflərinin koordinatlarının təyin edilməsi və hava döyüşlərinin aparılması üzrə tapşırıqlar məşq olunub.

Təlimlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# Vahid əlaqələndirmə mərkəzlərində 15,6 min şəxsə xidmət göstərilib

Prezident İlham Əliyevin 2021-ci il iyunun 25-də imzaladığı fərmanla yaradılan vahid əlaqələndirmə mərkəzlərində ötən dövrdə şəhid ailələri üzvləri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və müharibə əlillərindən ibarət 15,6 min şəxsə xidmətlər göstərilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, 142 Çağrı mərkəzi tərəfindən həmin mərkəzlərə aid məsələlər üzrə 25,5 min vətəndaş müraciəti cavablandırılıb.

Hazırda Bakı şəhərindəki və Abşeron rayonundakı DOST mərkəzlərində, həmçinin Gəncə şəhərində, Masallı və Ucar rayonlarında regional vahid əlaqələndirmə mərkəzləri fəaliyyət göstərir.

Həmin mərkəzlərdə 39 qurum, o cümlədən 6 mərkəzi (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Dövlət Sığorta Kommersiya Şirkəti) və 33 yerli icra hakimiyyəti orqanı tərəfindən 26 istiqamətdə xidmətlər "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim edilir.

Həmin xidmətlərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrə dair xidmətlər daxildir.

Hazırda vahid əlaqələndirmə mərkəzləri şəbəkəsinin respublikamızın bölgələri üzrə genişləndirilməsi istiqamətində işlər aparılır.

İndiyədək vahid əlaqələndirmə mərkəzlərinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 5988, Müdafiə Nazirliyi üzrə 6979, Səhiyyə Nazirliyi üzrə 266, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti üzrə 402, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi üzrə 224, Dövlət Sığorta Kommersiya Şirkəti üzrə 1287, yerli icra hakimiyyətləri üzrə 446 müraciət daxil olub.

# DOST mərkəzlərində xidmətlərin göstərilməsi üzrə orta müddət 8,5 dəqiqəyə enib

DOST mərkəzlərində vətəndaşlara xidmətlərin çevikliyinin təmin edilməsi həmin xidmətlərdən vətəndaş məmnunluğuna nail olunması üçün aparılan işlərin əsas hədəflərindən biridir.

Son bir ildə bu istiqamətdə növbəti irəliləyiş qeydə alınıb: DOST mərkəzlərinə müraciət edən vətəndaşlara müvafiq xidmətlərin göstərilməsinin orta müddəti 2019-cu ildə 10 dəqiqə 5 saniyə, 2020-ci ildə 9 dəqiqə 40 saniyə olduğu halda, 2021-ci ildə 8 dəqiqə 31 saniyə təşkil edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, DOST mərkəzlərində vətəndaşların növbədə orta gözləmə müddəti 2019-cu ildə 6 dəqiqə 35 saniyə, 2020-ci ildə 4 dəqiqə 24 saniyə olub. Ötən il bu göstərici təqribən iki dəfəyə yaxın azalaraq 2 dəqiqə 57 saniyəyə enib.

2019-cu ilin may ayından 5 DOST mərkəzi açılıb. Sosial sahələrə aid 156 xidmətin "bir pəncərə"dən, operativ və şəffaf şəkildə təqdim olunduğu bu mərkəzlərdə ötən dövrdə 700 mindən çox vətəndaşa xidmət göstərilib.

# ƏDV-ni «Kabinetim»də topla

## "Azercell"in "Kabinetim" tətbiqində "ƏDV Geri Al" xidmətindən istifadə mümkün oldu

Abunəçilərinin rahatlığı üçün daha geniş imkanlar yaradan "Azercell" "Kabinetim" mobil tətbiqi vasitəsilə Azərbaycan telekom bazarında növbəti ilkə imza atdı. Belə ki, "Kabinetim" tətbiqinin istifadəçiləri artıq bu platformada "ƏDV Geri Al" xidmətindən də istifadə edə bilərlər.




"ƏDV Geri Al" xidməti "Kabinetim" tətbiqinin kənar menyusunda yer alır. Xidmətdən istifadə üçün hansısa xüsusi səhifəyə daxil olmağa ehtiyac yoxdur. İstifadəçilər sadəcə "Əlavələr" menyusundan QR düyməsinə sürətli çıxış əldə edərək alış-veriş qəbzlərini skan edib ƏDV-ni geri ala bilərlər.

"Kabinetim"in təqdim etdiyi bu yeniliyin əsas özəlliyi ondan ibarətdir ki, "Kabinetim" istifadəçiləri yeni xidmət sayəsində ƏDV balansını dərhal "Azercell" nömrəsinin balansına köçürməklə, bu mobil tətbiqin təklif etdiyi bütün ödənişli xidmətlərindən yararlana bilərlər.

"Azercell" şirkəti "ƏDV Geri Al" xidmətini ABB ilə birgə layihə çərçivəsində reallaşdırır. Tətbiq daxilində bu xidmətlə bağlı məlumatlandırma ani ekran (push) bildirişləri şəklində həyata keçirilir. "Kabinetim" istifadəçiləri həm də mobil tətbiqin onlayn çat bölməsində "ƏDV Geri Al" xidməti ilə bağlı bütün suallara cavab əldə edə biləcəklər.

"ƏDV Geri Al" xidməti Azərbaycanda pərakəndə ticarət və ya iaşə müəssisələrindən əldə edilmiş mallara görə nağdsız qaydada ödənilmiş ƏDV-nin 15 faizinin, nağd qaydada ödənilmiş ƏDV-nin 10 faizinin geri qaytarılması layihəsidir.

Xatırladaq ki, bağlantını asanlaşdırmaqla abunəçilərinin həyatını daha da dolğun etməyi hədəfləyən "Azercell" "Kabinetim" xidməti üzərindən abunəçilərinə 24 saat ərzində nömrəyə onlayn nəzarət etmək imkanını yaradır. Azərbaycan, rus və ingilis dillərini dəstəkləyən "Kabinetim" tətbiqi vasitəsilə balansı artırmaq, tarif və internet paketlərini sifariş edib dəyişdirmək, bir çox xidməti aktiv və deaktiv etmək, onlayn çatda müştəri xidmətləri ilə dərhal əlaqə saxlamaq mümkündür. "Kabinetim" üzərindən Bookmate onlayn kitabxanasına, xarici dillər öyrənmək üçün Busuu proqramına, 200-dən çox kanala abunəlik verən NNTV, dünya üzrə 50 milyondan çox musiqi və minlərlə podkast bazası olan SberZvuk və digər tətbiqlərə qoşulmaq olar.

Həm iOS, həm də Android əməliyyat sistemlərində çalışan çoxfunksional "Kabinetim" tətbiqini App Store, PlayStore və ya Huawei AppGallery-dən ödənişsiz olaraq yükləmək mümkündür.

# Yeni mutasiya aşkarlanıb

## Ona görə arxayınlaşmaq olmaz, qaydalara hökmən əməl edilməlidir




Əvvəli 1-ci səh.

Pandemiyanın statistikasını aparan "Worldometer" portalının açıqlamasına əsasən, dünyada koronavirusa yoluxanların sayı 416 milyon 440 min nəfəri, bu xəstəlik səbəbindən vəfat edənlərin sayı isə 5 milyon 858 min nəfəri ötüb.

Ümumdünya Səhiyyə Təşkilatının həftəlik epidemioloji bülletenində yer alan məlumata görə, ötən həftə dünyada COVID-19 infeksiyasına 16 milyon 97 min 642 yoluxma halı aşkar edilib. Bu da öncəki həftə ilə müqayisədə 19 faiz azdır. Eyni zamanda ölüm hallarının sayı həftə ərzində 4 faiz artaraq 74 min 494 nəfərə çatıb.

Məlumatda o da bildirilib ki, keçən həftə Qərbi Sakit okean regionunda yoluxma halları 19 faiz artsa da, digər regionlarda azalma müşahidə edilib. Belə ki, yoluxma sayındakı azalmalar Cənub-Şərqi Asiyada 37, Amerikada 32, Afrikada 30, Avropada 16, Şərqi Aralıq dənizi regionunda isə 12 faiz təşkil etdiyi açıqlanıb.

COVID-19 infeksiyasına yoluxma səbəbindən həftəlik ölüm sayı Şərqi Aralıq dənizi regionunda 38 faiz, Qərbi Sakit okean regionunda 27 faiz, Afrikada 14 faiz, Amerikada 5 faiz yüksəlib. Məlumata görə, qeyd olunan müddətdə Avropada bu göstərici dəyişməyib, Cənub-Şərqi Asiya regionunda isə 9 faiz azalıb.

Bu günlərdə Ümumdünya Səhiyyə Təşkilatının Avropa bürosundan "Omikron" və "Delta" ştamlarının sürətlə yayılmaqda olduğu barədə həyəcan doğuran məlumat verilib. Belə ki, Avropa regionuna daxil olan altı ölkədə - Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Rusiya və Ukraynada son iki həftədə COVID-19-a yeni yoluxma hallarının sayı iki dəfədən çox artıb. ÜST-ün Avropa regionu üzrə direktoru Hans Klüge xəbərdarlıq edib ki, indi öz səmərəsini sübut etmiş tədbirləri ləğv etmək vaxtı deyil. Hans Klüge diqqətə çatdırıb ki, COVID-19 ölümsaçan xəstəlikdir. Məlumata görə, təkcə keçən həftə ərzində regionun 25 mindən çox sakini koronavirusa yoluxma nəticəsində vəfat edib. Belə bir vəziyyətdə səhiyyə sistemlərinin yükü artıb. Bunun əsas səbəbi odur ki, tibb işçiləri arasında da xəstələnmə halları çoxalır. Tibbi heyət arasında ötən ilin sonunda xəstələnmə hallarının sayı 30 min olduğu halda bir aydan sonra bu rəqəm 50 minə çatıb.

ÜST-ün Avropa regionu üzrə direktoru xəstəliyin ağırlaşmasından və ölümdən qorunmanın ən yaxşı vasitəsinin yenə vaksinasiya olduğunu vurğulayıb. Bildirilib ki, bu, hazırda yayılmaqda olan COVID-19 virusu variantlarının hamısına aiddir. Yüksək risk qrupuna daxil olan insanların çoxu hələ də müdafiə olunmayıb. Bosniya və Herseqovina, Bolqarıstan, Qırğızıstan, Özbəkistan və Ukraynada yaşı 60-dan yuxarı olan insanların COVID-19-a qarşı tam vaksinasiya kursu keçənlər 40 faizdən azdır. Bolqarıstan, Gürcüstan və Şimali Makedoniya da tibb işçilərinin 40 faizdən azının COVID-19-a qarşı azı bir doza vaksin qəbul etdiyi ölkələr sırasına daxildir. Doktor Klüge deyib: "Mən ölkələrin hökumətlərini, səhiyyə orqanlarını və müvafiq tərəfdaşları vaksinlərə tələbatın azalmasına və yerli səviyyədə vaksinlərin əhali tərəfindən qəbul edilməməsinə gətirib çıxaran səbəbləri diqqətlə təhlil etməyə, yerli şəraitin xüsusiyyətləri nəzərə alınmaqla vaksinasiya səviyyəsini təcili artırmaq üçün müvafiq tədbirlər görməyə çağırıram".

ÜST səhiyyə sistemlərinin elmi cəhətdən əsaslandırılmış müalicə metodlarının tətbiqinə hazırlığını təmin etməyə çağırır. Hans Klüge açıqlayıb: "Bir daha bildirmək istəyirəm ki, ümidsizliyə qapılmaq lazım deyil". Nikbinlik bir neçə amillə izah olunub. Bu sırada xəstəliyin keçirilməsi və vaksinləmə nəticəsində immunitetin artması, qış mövsümünün başa çatması, həmçinin vaksinasiya olunmuş şəxslərin "Omikron" ştamına yoluxduqda xəstəliyi nisbətən yüngül keçirməsi nəzərə çatdırılıb.

Danimarkalı alimlər koronavirusun "Stels-omikron" ştamının ORF3a zülalında yeni mutasiya aşkarlayıb.

Tədqiqatçılar BA.2 ştamının, eyni zamanda "Stels-omikron" kimi tanınan yeni variantın Danimarkada bütün infeksiyaların təxminən 24 faizini təşkil etdiyini nəzərə çatdırıblar.

Mütəxəssislərin fikrincə, bu dəfə dəyişikliklər ORF3a zülalında baş verib. Belə ki, həmin hüceyrələr iltihablı reaksiyalara səbəb olur və həmçinin virusun insan hüceyrəsinə daxil olmasında cavabdehdir.

Son günlər yeni növ koronavirusa yoluxma sayında nəzərə çarpan və böyük təəssüf doğuran yüksəliş bir sıra məsələləri daha da aktuallaşdırıb. Yaranmış vəziyyətdə uşaqları COVID-19-dan qorumaq üçün onları mümkün qədər kütləvi məkanlara aparmamaq məsləhət görülür. Diqqətə çatdırılır ki, azyaşlılarla marketə, bazara, ticarət obyektlərinə getmək onların sağlamlığı üçün təhlükə yarada bilər.

Həkim-endokrinoloq Aynur Muxtarova deyir: "Uşaqları COVID-19-dan qorumaq üçün, ilk növbədə, qidalanmaya düzgün fikir vermək lazımdır. Normal qidalanan, qidasında vitamin və mineral balansı qorunan, çoxlu maye qəbul edən uşaqlar arasında infeksion xəstəliklərə yoluxma riski daha azdır. Bundan başqa, normal yuxu rejiminə əməl olunması da uşaqlarda düzgün immunitetin formalaşmasına səbəb olur".

Mütəxəssislər son vaxtlaradək uşaqların xəstəlikdən qorunmayan və peyvənd olunmayan təbəqə sırasında olduğunu qeyd ediblər. Bir çox ölkədə 5 yaşdan yuxarı uşaqların COVID-19 əleyhinə peyvəndlənməsi tövsiyə olunub. Azərbaycanda isə 12 yaşdan yuxarı olan yeniyetmələrə peyvənd vurulmasına icazə verilib.

Peyvənd olunmazdan öncə pediatr müayinəsindən keçməyin gərəkliliyi diqqətə çatdırılıb. Bu zaman mütləq uşağın tam sağlamlığına və peyvənd olunmasına heç bir əks-göstəriş olmamasına diqqət yetirmək vacibdir.

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**








## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### gəmiləri üçün separatorların satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 24 fevral 2022-ci il saat 17:00-dəkdir.

Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.
Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.

*Tender komissiyası*


# Azərbaycan İranla uçuşları bərpa edir

"Buta Airways" aviaşirkətinin Mətbuat xidmətinin verdiyi məlumata görə, Azərbaycanın aşağıbüdcəli "Buta Airways" aviaşirkəti martın 4-dən etibarən Bakı və Tehran arasında koronavirus pandemiyası ilə əlaqədar dayandırılmış uçuşları bərpa edir.



Heydər Əliyev Beynəlxalq Aeroportundan Tehran hava limanına və əks istiqamətdə xüsusi reyslər həftədə bir dəfə - cümə günləri yerinə yetiriləcək.

Həmin uçuşlara biletləri aviaşirkətin rəsmi saytından ("Büdcə", "Standart" və "Super" tarifləri üzrə), həmçinin aviaşirkətin akkreditə olunmuş agentliklərindən (yalnız "Super" tarifi üzrə) əldə edə bilərsiniz.

Biletlərin dəyəri 29 avrodan başlayır.

Pandemiya dövründə qeyd edilən reyslərə həm gediş, həm gəliş zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunun 1-ci Terminalında xidmət göstərilir.

Daşımaya yalnız mövcud epidemioloji məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq.

İrana səfər etməyi planlaşdıran Azərbaycan vətəndaşlarının bu ölkənin ərazisinə giriş hüququ olmalıdır. Pandemiya dövründə İran ərazisinə giriş qaydaları aviaşirkətin saytında qeyd edilmişdir: https://www.butaairways.az/az-/covid/iran

Azərbaycanda COVID-19 üçün test verilə bilən klinikaların siyahısı aviaşirkətin saytında qeyd edilmişdir: https://www.butaairways.az/az/covid/clinics

Azərbaycan vətəndaşları İrandan Vətənə uçuş zamanı COVID-19-a dair PCR-testindən keçməlidirlər.

İran vətəndaşları Azərbaycan ərazisinə giriş zamanı COVID-19-a qarşı peyvəndlənmənin tam kursunu təsdiq edən etibarlı sənəd təqdim etməli, həmçinin koronavirus infeksiyasına dair PCR-testindən keçməlidirlər.

İrandan səfər edən sərnişinlərə PCR-testin mənfi nəticəsi barədə arayışda onun həqiqiliyini təsdiq edən QR-kodun olması tövsiyə edilir. Belə kodun mövcudluğu hava limanında rəsmiyyət prosedurlarından daha sürətli keçməyə kömək edəcəkdir.

COVID-19 testinin nəticəsi uçuşdan əvvəl 72 saat ərzində etibarlı olmalıdır.

## ◆Dünya gündəmi

# Dünyada miqrantların sayı 281 milyona çatır

## BMT-nin Baş katibi Antoniu Quterreş bəyan edib ki, insan alverçiləri nəhəng miqrasiya axınlarını idarə edirlər

Əvvəli 1-ci səh.





Miqrasiya bizim həyatımızın bir faktıdır və cəmiyyətləri və iqtisadiyyatı zənginləşdirən müsbət haldır. Bu barədə BMT-nin baş katibi Antoniu Quterreş bildirib.

Lakin lazımi idarəetmə olmadan o, faciəvi şəkildə insan tələfatına, sosial gərginliyin artmasına və insan haqlarının kobud şəkildə pozulmasına gətirib çıxarır. Bütün bu problemləri miqrasiya axınlarının səmərəli idarə edilməsi, o cümlədən beynəlxalq əməkdaşlıq çərçivəsində həll etmək olar və etmək lazımdır.

Miqrasiya bir çox üstünlüyə malikdir: o, işçi qüvvəsinin çatışmazlığı problemini həll edir, mədəni, iqtisadi və sosial sahələrdə insanlar arasında qarşılıqlı əlaqələrin qurulmasına kömək edir. Miqrantlar öz ölkələrinə qayıdanda topladıqları təcrübədən və elmi-texniki potensialdan istifadə edirlər.

Bununla yanaşı, bir çox miqrant ağlasığmaz problemlərlə və məhrumiyyətlərlə üzləşir. Onlar tez-tez qeyri-qanuni, təhlükəli şəraitdə qəpik-quruş üçün işləmək məcburiyyətində qalırlar. Miqrantlar çox vaxt əsarətə düşürlər və məcburi əməyin qurbanı olurlar. Onların bir çoxu irqçilik və ksenofobiya zəminində ağlasığmaz ayrı-seçkiliklə üzləşir. Son illər böyük miqrasiya köçləri minlərlə insanın ölümünə səbəb olmuşdur.

BMT rəhbəri hesab edir ki, leqal miqrasiya kanallarını genişləndirmək və insanların məcburi olaraq vətənlərinə qaytarılması təcrübəsindən imtina etmək olduqca vacibdir.

Hazırda dünyada təxminən 281 milyon beynəlxalq miqrant var. Quterreşin dediyi kimi, onların 80 faizindən çoxu ölkələr arasında qanuni olaraq hərəkət edir. Lakin qeyri-leqal kanallar mövcuddur və onların istifadəsi tez-tez insan tələfatı ilə nəticələnir. "Bu gün qaçaqmalçılar və insan alverçiləri nəhəng miqrasiya axınlarını idarə edirlər. Bu, tamamilə qəbuledilməzdir", - deyə BMT-nin Baş katibi bildirib.

BMT başçısının dediyinə görə, qaçaqmalçılar və insan alverçiləri şəbəkələrindən çıxmağın yeganə yolu qanuni miqrasiya kanallarının yaradılmasıdır. "Biz zəif vəziyyətdə olan miqrantları, o cümlədən təbii fəlakətlərdən və iqlim təlatümlərindən zərər çəkmiş qaçqınları daha yaxşı qorumalıyıq... işçi qüvvəsinin çatışmazlığı probleminin həlli və Davamlı inkişaf məqsədlərinin irəliləməsi üçün qanuni miqrasiya yollarını genişləndirməli və şaxələndirməliyik", - deyə Antoniu Quterreş vurğulayıb.

Son yeddi il ərzində dünyada miqrantların həlak olması ilə bağlı 50 minə yaxın hadisə qeydə alınıb. Real rəqəmlər xeyli yüksəkdir. "Hər rəqəmin arxasında insan var" deyən BMT rəhbəri miqrasiya zamanı qaçqınların həlak olmasına və digər faciələrə yol verməmək üçün insanları əllərindən gələni etməyə çağırıb.

Miqrant ölümünü "kollektiv biabırçılıq" adlandıran Antoniu Quterreş qeyd edib ki, qaçaqmalçılığa və insan alverinə qarşı mübarizə "humanitar imperativ, mənəvi və hüquqi öhdəlikdir".

**Rizvan HİLALOĞLU,**
**"Azərbaycan"**

# Ermənistanda işsizlik ciddi problemlər yaradır

## Sosial vəziyyətin getdikcə ağırlaşdığı İrəvanda intihar halları artıb

Əvvəli 1-ci səh.

Xüsusilə postmüharibə dövründə yaranan mövcud sosial-iqtisadi durum bu ölkədə əhalinin yaşayış səviyyəsinin daha böyük sürətlə pisləşməkdə olduğunu göstərir.

"Lragir" nəşri yazır ki, istənilən ölkədə sənayenin bərpası ilk olaraq yatırılan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır: "İndi isə gəlin baxaq - müharibədən sonra Ermənistana investisiya qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar da Paşinyan hakimiyyətinə olan inamsızlıq üzündən Ermənistanı tərk ediblər. Deməli, Ermənistanın "yüksəlişdə" olan sənaye istehsalı investorlar tərəfindən aşağı səviyyədə qiymətləndirilib".

Qeyd olunur ki, bu halda ümid ancaq bank kreditlərinə qalır ki, burada da bank rəhbərləri inamsızlıq ucbatından "Ermənistan iqtisadiyyatı"nın real sektoruna daxil olmaqdan çəkinirlər. Təsadüfi deyil ki, Ermənistanda son iki ildə ölkə sənayesinə kredit qoyuluşları 33 milyon dollar azalıb.

Sosial vəziyyətin getdikcə ağırlaşdığı Ermənistanda intihar halları da artıb. Belələrinin arasında işsizlər böyük əksəriyyət təşkil edirlər. Mütəxəssislərin sözlərinə görə, insanlar pis sosial şərait, qorxu, dini ideologiya səbəbindən həyatlarına son verirlər. Ermənistan Milli Statistika İdarəsinin açıqladığı məlumatlara görə, 2021-ci ildə intiharların sayı 191-ə çatıb ki, bu da ondan əvvəlki illə müqayisədə 8 nəfər çoxdur.

Erməni psixoloq Lilit Xaçatryanın sözlərinə görə, intihar edənlərdə acizlik, gücsüzlük, boşluq hissi, məna itkisi, uyğunlaşma qabiliyyəti aşağı düşür, stressə davamlılıq olmur, affektiv fon yüksək olur. O bildirib ki, bəzən yeniyetmələrdə intihar ideyası ortaya çıxır və bu, əsasən yan təsirlərlə əlaqələndirilir.

"Elə hallar olur ki, əlbəttə, ölüm ideyası - ölmək istəyi çox üstünlük təşkil edir və ölümün sakitliyi haqqında aydın təsəvvürə malik olurlar, sanki ölüm əbədi istirahətdir və bu cəhd ölümlə bitmirsə, qarşılarına yenidən cəhd etmək məqsədi qoyurlar", - deyə Xaçatryan vurğulayıb. Erməni psixoloq qeyd edib ki, bəzi insanlar ağrı, əzab hissini dəf edə bilmirlər, onlarda ruhi iztirab qaçılmaz olur. Bu isə xaosa, sosial-iqtisadi böhrana əlavə olunur.

Bütün sahələrdə iflasa uğrayan Ermənistanda işsizlik böhranı da yaşanır. Ölkədə gənclərin 42 faizi işsizdir. Qeyd olunur ki, həkimlər, tibb bacıları, mühəndislər, müəllimlər, digər peşə və sənət adamları arasında işsizlik hallarına daha çox rast gəlinir.

Bu arada daha bir maraqlı məqam işsizlərin arasında qadınların sayının getdikcə artmasıdır. Hesab edilir ki, Ermənistanda işsizlər arasında kişilərin azlıq təşkil etməsi təəccüb doğurmamalıdır. Çünki kişilərin əksəriyyəti öz ailəsini dolandırmaq məqsədilə ölkəni tərk edərək Rusiyaya və digər ölkələrə üz tutub. Xarici ölkələrə gedənlərin sayı bir milyonu ötüb.

Bütün bunlarla artıq iflic vəziyyətinə düşən Ermənistan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi də aşağı düşməkdədir. Ötən il də ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərəçarpacaq dərəcədə zəifləmişdi. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllini tapmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət iqtisadi inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.

Əvvəllər Rusiya və digər ölkələrin hesabına yaşayan Ermənistan indinin özündə də xaricdən asılı vəziyyətdədir. Xarici ianə və yardımların kəsiləcəyi təqdirdə Ermənistanın daha böyük səfalətə sürüklənəcəyi şəksizdir. Əhalinin getdikcə dərinləşən sosial problemləri, işsizlik, xarici sərmayənin az olması, istehsalın yoxluğu vəziyyəti daha da ağırlaşdırır. Onu da qeyd edək ki, Ermənistanın ixrac edə biləcəyi məhsul çeşidi böyük deyil və daha çox metal filizi, kənd təsərrüfatı məhsulları və spirtli içkilərlə məhdudlaşır ki, bununla da büdcəni doldurmaq mümkün deyil.

Bütün bunlar bir daha Ermənistanda gərgin vəziyyətin davam edəcəyini aydın şəkildə göstərir.

**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankına məxsus elektrikli yükqaldıran (stekker) və yükdaşıyan arabalara texniki qulluqla bağlı xidmətin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 07 fevral 2022-ci il tarixli qərarına əsasən "AZEQUİP" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Satınalmalar komissiyası*

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi – Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində mənzillərin güzəştlə satışı barədə ELAN

MİDA

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu "6" ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsinin 4 saylı binası üzrə 64, 6 saylı binası üzrə 44, 18 saylı binası üzrə 44, 21 saylı binası üzrə 44, 22 saylı binası üzrə 39, 23 saylı binası üzrə 39, 24 saylı binası üzrə 24, 25 saylı binası üzrə 72 və 26 saylı binası üzrə 72 mənzilin, ümumilikdə 442 mənzilin satışı 30 mart 2022-ci il tarixində saat 11:00-da başlayacaq və 08 aprel 2022-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 04 aprel 2022-ci il tarixində saat 11:00-da başlayacaq və 08 aprel 2022-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (**www.e-gov.az**) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla **www.mida.gov.az** və **www.mida.az** internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 442 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 29.11.2018-ci il tarixli 26396, 07.12.2018-ci il tarixli 26436 nömrəli müsbət rəyləri mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 4 | 832,9 | 9 | 2 | 1 | 16 | 34,97 - 35,57 | 43,02 | "Chinar İnshaat" MMC ("Caspian Service" MMC konsorsium) / Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18 | 03.10.2020 |
| | | | | 2 | 32 | 56,78 - 56,84 | 68,34 - 68,57 | | |
| | | | | 3 | 16 | 74,78 | 87,06 | | |
| 6 | 586,72 | 12 | 1 | 3 | 44 | 75,88 - 76,94 | 89,54 - 90,96 | "Chinar İnshaat" MMC ("Caspian Service" MMC konsorsium) / Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18 | 03.10.2020 |
| 18 | 586,72 | 12 | 1 | 3 | 44 | 75,88 - 76,94 | 89,54 - 90,96 | "HN Construction" MMC / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 14.09.2020 |
| 21 | 591,77 | 12 | 1 | 3 | 44 | 75,88 - 76,94 | 89,54 - 90,96 | "Hünər-İnşaat" Firması / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 02.10.2020 |
| 22 | 832,9 | 9 | 2 | 1 | 12 | 35,57 | 43,02 | "Hünər-İnşaat" Firması / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 02.10.2020 |
| | | | | 2 | 23 | 56,78 - 56,84 | 68,34 - 68,57 | | |
| | | | | 3 | 4 | 74,78 | 87,06 | | |
| 23 | 765,4 | 9 | 2 | 2 | 18 | 56,86 | 68,56 - 68,58 | "Hünər-İnşaat" Firması / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 02.10.2020 |
| | | | | 3 | 17 | 72,72 - 72,74 | 87,78 | | |
| | | | | 4 | 4 | 96,6 | 110,87 | | |
| 24 | 565,92 | 12 | 1 | 3 | 24 | 75,88 - 76,94 | 89,54 - 90,96 | "Faktor Qrup-S" MMC / Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 189 | 02.10.2020 |
| 25 | 781,84 | 9 | 2 | studio | 18 | 34,97 - 35,57 | 43,10 | "Faktor Qrup-S" MMC / Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 189 | 02.10.2020 |
| | | | | 2 | 36 | 56,78 - 56,84 | 68,34 - 68,71 | | |
| | | | | 3 | 18 | 74,78 | 87,06 | | |
| 26 | 781,84 | 9 | 2 | studio | 18 | 34,97 - 35,57 | 43,10 | "Faktor Qrup-S" MMC / Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 189 | 02.10.2020 |
| | | | | 2 | 36 | 56,78 - 56,84 | 68,34 - 68,71 | | |
| | | | | 3 | 18 | 74,78 | 87,06 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

Studio tipli mənzillərin qiyməti – **33 222** manatdan başlayır,

1 otaqlı mənzillərin qiyməti – **33 222** manatdan başlayır,

2 otaqlı mənzillərin qiyməti – **53 941** manatdan başlayır,

3 otaqlı mənzillərin qiyməti – **69 084** manatdan başlayır,

4 otaqlı mənzillərin qiyməti – **91 770** manatdır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | *Studio tipli* | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | 10% | **143-145 manat** | **143-145 manat** | **232 manat** | **297-314 manat** | **394 manat** |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| Studio tipli | 33 222 | 3 322 | **29 900** |
| 1 | 33 222 | 3 322 | **29 900** |
| 2 | 53 941 | 5 394 | **48 547** |
| 3 | 69 084 | 6 908 | **62 176** |
| 4 | 91 770 | 9 177 | **82 593** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsinin **www.yasamal2.mida.gov.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı Bakı, Sumqayıt və 1 saylı Gəncə), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya* ***www.mida.gov.az*** *və* ***www.mida.az*** *internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

*Təkrar*

# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC *açıq tender elan edir*

LOT - 1. Mənzil-kommunal xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədi ilə tələb olunan müxtəlif növ malların alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (Əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05) ala bilərlər:

İştirak haqqı: **800.00 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra azı 35 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 65 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri 11 mart 2022-ci il saat 11: 00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına 30 mart 2022-ci il saat 18:00-a qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri 31 mart 2022-ci il saat 11:00-da Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# Axtarışda olan şəxs Ukraynadan Azərbaycana ekstradisiya edilib

"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1993-cü il 22 yanvar tarixli Konvensiyanın tələblərinə uyğun olaraq, Baş Prokurorluğun Azərbaycan Respublikasının vətəndaşı Kərimov Nizami Qulam oğlunun ekstradisiyası haqqında vəsatəti Ukrayna Baş Prokurorluğu tərəfindən təmin edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Abşeron Rayon Polis İdarəsinin istintaq bölməsinin icraatında olan cinayət işi üzrə Nizami Kərimovun "Rafat LTD" MMC-nin direktoru vəzifəsində işləyərkən etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədilə mülkiyyət hüququ olmadan torpaq sahələrini satmaqla vətəndaşlara külli miqdarda ziyan vurduğuna dair əsaslı şübhələr müəyyən edildiyindən o, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib və barəsində 2017-ci il noyabrın 17-də həbs qətimkan tədbiri seçilməklə axtarış elan edilib.

N.Kərimov 2022-ci il yanvarın 13-də Ukraynada müəyyən edilərək saxlanılıb. O, fevralın 17-də Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Ukraynadan Azərbaycana gətirilib.


# OXUCULARIN NƏZƏRİNƏ! "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


**93 saylı peşə məktəbi tərəfindən Pərvanə Nazim qızı Məmmədovanın adına verilmiş (3№-3991324) diplom itdiyi üçün etibarsız sayılır.**


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyev və Milli Məclisin İşlər müdiri Firudin Hacıyev Hesablama Palatası Aparatının rəhbəri Vüqar İbrahimova anası

**RÜBABƏ İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5510
Sifariş 444
Qiyməti 40 qəpik